# İran niyə Türk dünyasının həmrəyliyindən qorxur?



Səhifə ⇨ 4

# Azərbaycan Avropanın əsas qaz tədarükçüsünə çevrilir



Səhifə ⇨ 7

# COP29 çərçivəsində liderlər sammiti keçiriləcək




Səhifə ⇨ 8

# Rusiya səmasında PUA kabusu...



Səhifə ⇨ 11



# Azərbaycan XİN-in Paşinyana cavabı

**Ermənistan baş nazirinin 10 sentyabr tarixində "Yerevan dialoqu" forumunda çıxışı zamanı həm "sülh sazişi" layihəsi, həm də ümumilikdə 10 noyabr üçtərəfli Bəyanatı ilə bağlı səsləndirdiyi iddialar reallıqların açıq-aşkar təhrif olunmasıdır.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş nazirinin 10 sentyabr tarixində "Yerevan Dialoqu" adlı forumda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirilib.

Qeyd edilib ki, Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir.

*(ardı 5-ci səhifədə)*

Xalq qəzeti
Xalqın qəzeti!
№ 197 (30601) 11 sentyabr 2024-cü il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan qlobal ekoloji mübarizənin ön cəbhəsidir

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda COP29-a hazırlıqla tanış olub



Səhifə ⇨ 2

# İrəvan Moskvaya arxadan zərbə vurur

## *Qərbdən müasir silah alışının gizlinləri*



**Son illərdə silahlanma məsələsinə böyük diqqət ayıran, Hindistandan, Fransadan və digər Qərb ölkələrindən müasir silahlar, o cümlədən, hava hücumundan müdafiə vasitələri alan Ermənistan, eyni zamanda, Ukrayna Silahlı Qüvvələrinə sovet istehsalı olan raketləri və zenit-raket komplekslərini verir. Bu barədə Rusiya mənbələri məlumat yayıblar.**

Məsələn, "Fighterbomber" (qırıcı bombardmançı) ləqəbi ilə tanınan rusiyalı keçmiş hərbi pilot və bloger İlya Tumanov özünün "Telegram" kanalında yazır ki, Ermənistan hava hücumundan müdafiə vasitələrinin əhəmiyyətli hissəsini ukraynalılara verib. Xüsusilə, söhbət S-300, "Buk", "Osa" və "Tor" komplekslərindən, eləcə də bu sistemlər üçün müvafiq raketlərdən gedir. Tumanov ironik şəkildə qeyd edir ki, Ermənistan hava hücumundan müdafiə komplekslərini Kiyevə təhvil verməklə uzun illər göstərmiş olduğu dəstəyə görə Rusiyaya məhz bu cür "təşəkkür" edib. Keçmiş hərbi pilot İrəvanın qərarını "Ukraynada müharibə fonunda Rusiyanın maraqlarına qarşı atılmış addım" adlandırıb.

Hələlik Rusiyanın Müdafiə Nazirliyi və digər strukturları, rəsmi şəxsləri bu məsələ ilə bağlı heç bir şərh verməyiblər. Halbuki, Tumanovdan əvvəl də bir sıra Rusiya mənbələri Ermənistanın öz ehtiyatlarından Ukraynaya bir neçə ədəd S-125 "Peçora" zenit raket kompleksi və "Toçka-U" raketləri verdiyi barədə məlumat yaymışdılar.

*(ardı 3-cü səhifədə)*




# Ermənistanın "sülh" oyununda yeni gedişlər

## *Razılaşdırılmamış məsələlərlə saziş imzalanması mümkün deyil*

**Rəsmi İrəvan sülhə aparan yolun üzərində ən müxtəlif və bəzən ağlagəlməz maneələr yaratmaqla prosesi qeyri-müəyyən müddətədək uzatmağa çalışır. Bundan ötrü Ermənistan rəhbərliyi boynuna götürdüyü öhdəlikləri yerinə yetirmək əvəzinə, yeni "diplomatik gedişlər" edir, beynəlxalq ictimaiyyətin gözündə özünü "sülhə meyilli" tərəf kimi göstərir. Hayların baş diplomatı Ararat Mirzoyanın mətbuat konfransında İrəvanın razılaşdırılmış 80 faiz məsələlərlə sülh sazişini imzalamağa hazır olduğunu bəyan etməsi isə lümpen kütləyə hesablanmış diplomatik jestdir.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın xarici işlər nazirinin "sülh sazişi" və kommunikasiyalarla bağlı fikirləri ilə əlaqədar verdiyi şərhdə birmənalı şəkildə qeyd edilir ki, Ermənistan tərəfi növbəti dəfə ictimaiyyətin fikirlərini real vəziyyətdən yayındırmaq məqsədi güdür. "Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsi üzrə sonuncu dəfə Azərbaycan tərəfindən iyun ayında təqdim olunmuş şərhlərə Ermənistan tərəfi avqust ayının sonunda, təqribən, 70 gün sonra öz şərhlərini göndərib". Qeyd olunan şərhdə Ermənistan tərəfinin Azərbaycanın təqdim etdiyi təklifə adekvat reaksiya vermək əvəzinə, layihədə əks olunması zəruri sayılan müddəaları çıxarmaqla problemlərə göz yummağa cəhd göstərdiyi bildirilir.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda COP29-a hazırlıqla tanış olub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verildi. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edildi.



Qeyd olundu ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

# Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Abdelmacid Tebbuna

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qazandığınız inamlı qələbə qardaş Əlcəzair xalqının şəxsən Sizə, tutduğunuz siyasi xəttə böyük inam və etimadının aşkar təzahürüdür.

Biz Azərbaycan–Əlcəzair dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Əlcəzair xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 sentyabr 2024-cü il**

# Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin görüşü




**Sentyabrın 10-da Batumi şəhərində Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Türkiyənin Milli Müdafiə naziri Yaşar Gülerin və Gürcüstanın Müdafiə naziri İrakli Çikovani arasında üçtərəfli görüş keçirilib.**

Görüşdə əsrlərdir xalqlarımızın mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, hazırda da dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə qarşılıqlı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi xüsusi olaraq qeyd edilib.

Qarşılıqlı etimada əsaslanan əməkdaşlığın xalqlarımızın xoşbəxt gələcəyi və rifahının təmin olunması baxımından böyük əhəmiyyət kəsb etdiyi bildirilib.

Üçtərəfli görüşdə müasir dövrün çağırışları, eləcə də regionumuzun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə birgə səylərin birləşdirilməsinin və bu istiqamətdə fəaliyyətlərin qarşılıqlı əlaqədə həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Müdafiə nazirləri üçtərəfli və ikitərəfli birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Əminliklə vurğulanıb ki, müdafiə sahəsində üçtərəfli əməkdaşlığın inkişafı yalnız ölkələrimiz üçün deyil, eləcə də regionda dayanıqlı sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına böyük töhfələr verəcək.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın yeni perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı maraq doğuran bir çox mövzularla bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda üçtərəfli görüşün yekununa dair protokol imzalanıb və media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

***

Həmin gün Batumidə Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın Müdafiə naziri İrakli Çikovani arasında ikitərəfli görüş keçirilib.

Nümayəndələrin iştirakı ilə keçirilən görüşdə İrakli Çikovani ölkələr arasında əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm rol oynadığını vurğulayıb.

Zakir Həsənov bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrimizin davamlı olaraq inkişaf etdiyini qeyd edib. O bidirib ki, qarşılıqlı səfərlərin və müxtəlif formatda görüşlərin keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunun bariz nümunəsidir.

Görüşdə ölkələr arasında hərbi əməkdaşlığın perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yeni perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov dünən Batumi şəhərində Türkiyənin Milli Müdafiə naziri Yaşar Güler ilə də görüşüb.

Görüşdə müdafiə nazirləri Azərbaycan və Türkiyə arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın, strateji müttəfiqliyin yüksək səviyyədə olduğunu, eyni zamanda dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu diqqətə çatdırıblar.

İkitərəfli görüşdə birgə təlimlərin, təcrübə mübadiləsinin intensivliyinin artırılması, regionda və dünyada mövcud hərbi-siyasi proseslər, bölgədə dayanıqlı sülhün və sabitliyin təmin edilməsi yolları, həmçinin qarşılıqlı maraq doğuran müxtəlif məsələlər haqqında ətraflı fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

### “Şöhrət” ordeni ilə

Aslanov Orxan Əlövsət oğlu
Vəliyeva Lamiyə Rövşən qızı

### 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Xəlilov İmaməddin Marif oğlu
Nəcəfzadə Səid Əli oğlu

### 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Salei Raman Serqeyeviç
Zəkiyev İlham Əzizağa oğlu

### 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Zeynalov Sabir Elniz oğlu

### 1-ci dərəcəli “Əmək” ordeni ilə

Panyutin Oleq Viktoroviç

### 2-ci dərəcəli “Əmək” ordeni ilə

Culfayev Alavərdi Abasoviç
Zayets Vladimir Vladimiroviç

### 3-cü dərəcəli “Əmək” ordeni ilə

İbrahimov İbrahim Eldar oğlu
Kirillov Fyodor Borisoviç

### “Tərəqqi” medalı ilə

Xəlilov Arif Məmməd oğlu
İsrafilov Nazim Məhəmmədvəli oğlu
Şükürov Vüqar Gülağa oğlu
Tağızadə Fərid Əvəz oğlu

### “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə

Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İsrafilov Vəli Rəşadət oğlu
Zahidov Azad Zakir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 sentyabr 2024-cü il**

# Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

**1.** XVII Yay Paralimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 sentyabr 2024-cü il**

# Azərbaycan–Ukrayna diplomatik məsləhətləşməsi

**Sentyabrın 10-da Xarici İşlər naziri Ceyhun Bayramov ilə Ukraynanın yeni təyin olunmuş Xarici İşlər naziri Andrey**




**Sibiqa arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı Azərbaycan ilə Ukrayna arasında mövcud əməkdaşlıq gündəliyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.



Nazir Ceyhun Bayramov həmkarını Ukraynanın xarici işlər naziri vəzifəsinə təyin edilməsi münasibətilə ürəkdən təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir Andrey Sibiqa təbriklərə görə təşəkkür edib, Azərbaycan və Ukrayna arasında mövcud əməkdaşlığın bundan sonra da gücləndirilməsinə ümidvar olduğunu deyib.

Ukrayna ətrafında yaranmış təhlükəsizlik vəziyyəti ilə bağlı Azərbaycan tərəfindən göstərilən humanitar yardımlar, xüsusilə, İrpen şəhərində infrastrukturun bərpası və yenidənqurmasına, habelə minatəmizləmə fəaliyyətinə göstərilən dəstək minnətdarlıqla xatırlanıb.

***

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinin ölkəmizdəki səfiri Abdullah Mohamed Abdullah Almauidini ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Ceyhun Bayramov Azərbaycan və Küveyt arasında mövcud əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi səylərə görə ona təşəkkür edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı dövründə Küveyt tərəfindən ərazi bütövlüyümüz və suverenliyimizə göstərilən dəstək minnətdarlıqla xatırlanıb.

Səfir ölkəmizdəki diplomatik fəaliyyətinin yekunlaşması ilə əlaqədar qəbula, habelə xoş arzulara görə təşəkkürünü bildirib, Azərbaycan və Küveyt arasında mövcud əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişafda olacağına əminlik ifadə edib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Ermənistanın “sülh” oyununda yeni gedişlər

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan XİN rəsmisi haqlı olaraq qeyd edir ki, sülh sazişi üzrə indiyə qədər bir çox müddəalar, yəni təqribən, 80 faiz razılaşdırılsa da, bəzi müddəalar üzrə razılıq əldə edilməyib: “Ancaq, bu, o demək deyil ki, Ermənistan tərəfinin təklif etdiyi kimi, razılaşdırılmamış müddəaları layihədən çıxarmaqla saziş imzalanmalıdır. Bu məqbul hesab edilə bilməz. Çünki, sülh sazişinin davamlı olması üçün bir sıra istiqamətlərdə iki ölkə arasında problemli məsələlərə aydınlıq gətirilməlidir”.

Bu zaman A.Hacızadə onu da nəzərə çatdırır ki, keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk qrupunun işinin bərpasına çalışan Ermənistanın “sülh sazişi”nin mətninin əhatə dairəsini azaldaraq onu istənilən formada imzalamağa çağırış etməsi bu ölkənin əsl niyyətinə şübhələr yaradır: “Saziş layihəsinin imzalanması üçün Ermənistan, ilk növbədə, Azərbaycana qarşı ərazi iddialarına istinad edən konstitusiyasında müvafiq dəyişikliklər etməlidir”.

***

“Azərbaycanla sülh sazişini imzalamağa hazırıq” məzmununda diplomatik feyk-tezisin davamı dünən “İrəvan dialoqu” forumunun açılışında baş nazir Nikol Paşinyanın ifasında səsləndirildi. Baş diplomatının başladığı “sülh demarşı”nı yeni siyasi çalarlarla “zənginlşdirən” baş nazir Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin mətninin təxminən 80 faiz razılaşdırıldığını bəyan edib. O, hətta artıq razılaşdırılanları kağıza köçürməyi, müqaviləni imzalamağı təklif edib. “Bu bir təsis sənədi olsun, sonra qalan məsələləri müzakirə edərik”, – deyən Paşinyan Ermənistan və Azərbaycanın sülh müqaviləsində nəzarət payından başqa bir şeyin olmasından da danışıb: “Biz təklif edirik ki, 13+3 (?) sazişinin bəndləri masaya qoyulsun və indi “sülh müqaviləsi” kimi imzalansın”.

Hayların baş naziri “sülhpərvər” çıxışına davam edərək, “heç vaxt heç yerdə bütün məsələləri birdəfəyə həll edən saziş olmayıb” kimi fəlsəfi mülahizələrini də auditoriyaya ərz edib: “Belə bir razılaşma yoxdur. 20 deyil, 50 maddəni nəzərdən keçirsək belə, sənəddə yenə də həllini tapmayan məqamlar olacaq. Münasibətləri bir müqavilə ilə tənzimləyən tərəflər olmayıb”.

Bir neçə gün öncə sülh sazişindəki 17 bənddən 14-nün razılaşdırıldığını bildirən Ermənistan baş naziri “İrəvan dialoqu” forumunun tribunasından Azərbaycanın və bölgədə maraqlı aktorların ünvanına üfürdüyü “sülh mesajları” ilə “sülh göyərçini” cildində görünməyə çalışır. O, auditoriya qarşısındakı populist çıxışında bir az da irəli gedərək, artıq neçənci dəfədir ki, Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddialarının yer aldığını bildirib. Paşinyanın istər tarixi, istərsə də hüquqi cəhətdən nonsens sayılan iddiasına görə, Azərbaycanın 1991-ci ildə qəbul etdiyi Konstitusiya Aktı Ermənistanın indiki coğrafiyasının Azərbaycan ərazisi hesab edildiyi 1918-ci il Azərbaycan Respublikasının Müstəqillik Bəyannaməsinə istinad edir. “Ancaq qeyd etmək lazımdır ki, biz bunu danışıqların predmetinə çevirmirik. Çünki sülh müqaviləsinin razılaşdırılmış mətnində deyilir ki, heç bir tərəf öz daxili qanunvericiliyinin müddəalarını uğursuzluğuna bəhanə kimi əsaslandıra bilməz”. Onun iki ölkənin baş qanunlarında paralellər aparmaq niyyətinin, sadəcə, sülh danışıqlarında paritetə nail olmaq cəhdindən başqa bir şey olmadığı hamıya gün kimi aydındır. Üstəlik, bu qondarma iddiadan müharibədə məğlub tərəfin qalibə qarşı istifadə etməsinin adı siyasi avantüradır.




***

**Mövzu ilə bağlı “XQ”-yə açıqlama verən siyasi icmalçı Fərhad Məmmədovun fikirləri maraq doğurur:** “Ararat Mirzoyan, Nikol Paşinyan deyirlər ki, bugünədək razılaşdırılmış maddələr əsasında sülh sazişini imzalayaq. Azərbaycan tərəfi hələ bu ilin may ayında əsas prinsiplər üzrə ilkin çərçivə sənədinin, daha sonra isə sülh müqaviləsinin imzalanmasını təklif etmişdi. Yəni, sülhə mərhələli şəkildə gəlməyin yol xəritəsini ortaya qoymuşdu. Burada ən vacib məsələ Azərbaycanın Ermənistan konstitusiyasında ərazi iddialarının yer aldığı müddəaların aradan qaldırılması ilə bağlı tələbidir. Bu tələbi yerinə yetirməkdən boyun qaçırmaq üçün 2027-ci ildə referendum keçiriləcək. Artıq bu, Azərbaycana, o cümlədən, prosesl yaxından maraqlanan qüvvələrə açıq mesajdır ki, yaxın üç il ərzində sülh saşinin imzalanması baş tutmayacaq. Rəsmi İrəvan Bakının təklif etdiyi yolu, bir növ, bəhanə kimi ortaya atır. Azərbaycan rəhbərliyi isə ən yüksək səviyyədə bildirib ki, sülh müqaviləsi yalnız konstitusiyada dəyişiklik ediləndən sonra imzalana bilər”.



Amma indiki dövrdə, referenduma qədər ümumi prinsiplərin əsasında hansısa sazişi imzalamaq və kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası, ikitərəfli münasibətlərin normallaşması istiqamətində müəyyən addımların atıldığını nəzərə çatdıran siyasi icmalçı üç ildən sonra davamlı və uzunmüddətli sülhün yaranması perspektivindən də danışdı: “İki məqam COP29-la Qərbin gözləntiləri ilə bağlıdır. İstək ondan ibarətdir ki, ya tədbirdən əvvəl, ya da onun gedişində tərəflər bir sənəd imzalasınlar və onun da adını sülh müqaviləsi qoysunlar. Nikol Paşinyan Qərbin məhz bu gözləntilərinə cavab olaraq, “Nədə razılığa gəlmişiksə, onun altından imza ataq və bunu dünyaya göstərək” kimi oyununu aparır. Əfsuslar olsun ki, Ermənistan baş naziri yenə də konyukturaya uyur, olduqca dar çərçivədə fikirləşir. Azərbaycan isə sağlam və uzunmüddətli təkliflərlə çıxış edir. Söhbətin məğzi odur ki, biz hər hansı tədbirin xatirinə Ermənistanla 30 ildir davam edən münaqişəni bir dəfəyə yekunlaşdıra bilmərik. Tədbirlər gəldi-gedərdi, amma qalan problemlər, münasibətlər daimidir. Bu mənada, rəsmi Bakı məsələlərə köklü şəkildə, İrəvan isə perspektiv və konyuktura xatirinə yanaşır. Fərq bundadır”.

***

Nikol Paşinyanın dünənki çıxışında səsləndirdiyi “maraqlı tezislər”dən daha birinin üzərində dayanmağa ehtiyac duyuruq. O, bildirib ki, sülh müqaviləsinin razılaşdırılmış bəndlərindən biri hər iki tərəfə danışıqları davam etdirməyə imkan verəcək birgə mexanizmi nəzərdə tutur. “Sülh müqaviləsinin razılaşdırılmış hissəsində Ermənistanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasını nəzərdə tutan faktı demirəm. Həmin mexanizmə görə, belə qərarlar verə bilərik. Biz bu təklifi açıq və rəsmi şəkildə vermişik. Mən sülh müqaviləsinin razılaşdırılmış mətnini və münasibətlərin qurulması haqqında sazişi ən qısa zamanda imzalamağa hazır olduğumu bildirirəm”.

Bakı artıq belə köhnəlmiş hay nağıllarına inanmır. Bəli, “diplomatik demarşı”nın eyforiyasına uyan Paşinyan tezliklə Bakı ilə diplomatik münasibətlərin qurulmasından dəm vurur. Sanki, o, özünü Azərbaycanın sülh sazişindəki müddəaların razılaşdırılmış 80 faizindən özü üçün daha önəmli saydığı qalan 20 faizə daxil olan tələblərini yerinə yetirmiş kimi qələmə verir. Yəni, öz ölkəsinə və dünyaya özünü “sülh carçısı” kimi sırımağa çalışır və bununla, guya, Bakının mövqeyində yumşalmaya nail olacağına ümid edir.



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev** hesab edir ki, ortaya qoyulan hər bir sənədin öz fəlsəfəsi və prinsipləri var: “Sülhə nail olmaqdan ötrü hazırlanan sülh müqaviləsi də hərtərəfli, davamlı və tutarlı olmaldır. Məhz belə bir sülhə nail olmaqdan ötrü ən əsas, prinsipial məsələlər sazişin mətnində öz əksini tapmalıdır. Misal üçün, sərhədlərin delimitasiyası üzrə iki ölkə arasında ayrı bir sənəd mövcuddur və orada müəyyən bəndlər üzrə razılıq əldə edilib. İki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması prinsipinə əsaslanan delimitasiya bunsuz üzünmüddətli ola bilməz. Yəni, proses hansısa mərhələdə dayana bilər. Ona görə ki, ərazi bütövlüyünün qarşılıqlı tanınmaması sonradan müəyyən problemlərin ortaya çıxması ilə nəticələnə bilər. Amma tanınma varsa, yerdə qalanlar texniki məsələlərdir. 50 metr o tərəfdə, 30 metr bu tərəfdə, bunlar demarkasiya prosesinin suallarıdır”.

Ermənistan tərəfinin sülh sazişindən üç-dörd maddənin çıxarılması təklifinə toxunan mərkəz rəhbəri həmin istiqamətdə də gələcəkdə yeni problemlərin yarana biləcəyini istisna etmədi: “Azərbaycanın mövqeyi ondan ibarətdir ki, imzalanacaq sənəd bütöv, bütün müddəalar üzrə tərəflərin öz aralarında razılaşdırdığı müqavilə olmalıdır. Əks təqdirdə, sülhün əldə olunmasından danışmağa dəyməz”.

Göründüyü kimi, bütün üsul və vasitələrinin tükəndiyi Hayastan rəhbərliyi sülhdənqaçma yolunda sonuncu “patronlarını” xərcləməkdədir. Qərblə Rusiya, reallıqla daşnak-revanşizmi arasında qalan Paşinyanın “İrəvan dialoqu” forumunda dünənki çıxışı isə nədənsə bizə “Qu quşunun son nəğməsi”ni xatırladı...

*İmran BƏDİRXANLI*
*XQ*

# İrəvan Moskvaya arxadan zərbə vurur

**(əvvəli 1-ci səhifədə)**

İrəvandakı mənbələr isə daxili və xarici çağırışlarla üzləşən Ermənistanın köhnəlmiş hava hücumundan müdafiə vasitələrini və raket komplekslərini öz arsenalından çıxararaq, Ukraynaya vermək barədə qərar qəbul etməsinin tamamilə mümkün olduğunu qeyd edirlər. Onlar öz fikirlərini bununla əsaslandırırlar ki, İrəvan bu yolla Vaşinqtondan dəstək almağı və müdafiəsini təmin etməyi hədəfləyir. Hərbi ekspertlər iddia edirlər ki, S-125 “Peçora” sistemləri və “Toçka-U” kompleksləri müasir ordular üçün öz aktuallığını çoxdan itirib. Lakin eyni zamanda, onlar hava hücumundan müdafiə vasitələri və sursatların xroniki çatışmazlığını yaşayan Ukrayna Silahlı Qüvvələri üçün də tamamilə gərəkli ola bilər.

Onu da qeyd etmək lazımdır ki, İkinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə Ermənistan və Azərbaycan sərhədçiləri arasında baş verən toqquşmalar zamanı sovet zenit-raket komplekslərindən ibarət Ermənistanın hava hücumundan müdafiə sistemi Azərbaycan ordusunun pilotsuz uçuş aparatları və yüksək dəqiq silahları qarşısında tamamilə aciz qalıb. Nəticədə, onların böyük hissəsi sıradan çıxarılıb. Ermənistan isə yenidən silahlanma proqramı çərçivəsində son illərdə Hindistan, Fransa və digər ölkələrdən daha müasir hava hücumundan müdafiə sistemləri və radarlar almağa başlayıb. Xüsusilə, ötən il Ermənistan Hindistandan müasir “Akash 1S” zenit-raket komplekslərinin böyük partiyasını sifariş edib. Yeri gəlmişkən, qeyd edək ki, “Akash 1S” Sovet İttifaqının S-125 “Peçora” hava hücumundan müdafiə sistemləri əsasında hazırlanıb. Hindistanın hərbi-sənaye kompleksi ilə bağlı xəbərləri işıqlandıran “Indian Defense Research Wing” adlı sayt yazır ki, Nyu-Dehli artıq bu il onları Ermənistana tədarük etməyi planlaşdırır.



Öz növbəsində, Fransa 2023-cü ilin payızında imzalanmış müqavilə əsasında İrəvana üç ədəd “Ground Master 200” radarını verib. Bundan əlavə, Parisdəki mənbələr Ermənistanın Fransadan “Mistral” qısamənzilli zenit-raket kompleksləri almağa hazırlaşdığı barədə məlumat yayıb.

Bundan çıxış edərək ehtimal etmək olar ki, köhnəlmiş hava hücumundan müdafiə sistemlərinin və sovet istehsalı olan raketlərin Ukraynaya təhvil verilməsi İrəvanın fransız və amerikalı tərəfdaşları ilə sövdələşməsinin bir hissəsi ola bilər. Bu sövdələşmə Qərbdə avtomobil satıcıları arasında dəbdə olan kampaniyanın ruhuna uyğun gəlir: Bir təzəsini almaq üçün beş köhnə modeli təhvil ver!

Rusiyalı hərbi ekspert, bloger və jurnalist Yuri Podolyak Ermənistanın Ukraynaya silah tədarükü ilə bağlı məlumatlara cavab olaraq anti-Rusiya siyasəti ucbatından Ermənistanın artıq öz ərazilərini də itirəcəyini bildirib.

İnternetdəki Rusiya ictimai səhifələri (pablik) yazırlar ki, Ermənistan hökuməti ilə Avropa Komissiyası 2024-cü il avqustun 28-də müqavilə imzalayıblar. Müqaviləyə əsasən, İrəvan Gürcüstan limanları vasitəsilə Avropaya 210 milyon avro dəyərində sovet istehsalı olan tanklar və hava hücumundan müdafiə vasitələri üçün sursat göndərəcək. Bundan əlavə, Ermənistan yenə də sovet istehsalı olan 152 mm-lik mərmilərlə birgə artilleriya da göndərməyi öhdəsinə götürüb. İrəvan bundan əvvəl Ukrayna ilə əməkdaşlığı gücləndirmək arzusunu bildirmişdi. Eyni zamanda, ölkə KTMT-nin bütün orqanlarında iştirakını da dondurub.

Sözsüz ki, Ermənistanın bu addımı Rusiyaya arxadan zərbə vurmağa bənzəyir. Rusiyanın Ermənistan qarşısında tarixi xidmətləri var. Ermənistan öz dövlətçiliyinin yaranmasına görə Rusiyaya borcludur. Moskva hər zaman Ermənistanın hamisi, arxa-dayağı kimi çıxış edib. Azərbaycan rəhbərliyinin yürütdüyü uzaqgörən siyasət nəticəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi və ötən il keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı Rusiyanın beynəlxalq hüquqa uyğun davranması hayların xoşuna gəlməyib. Onlar əsasən bu hadisələrdən sonra Rusiyadan incik düşərək, üzlərini Qərbə tərəf çeviriblər.

Ümumiyyətlə, döyüşən tərəflərə silah-sursat vermək dünyada yaxşı qarşılanmayan haldır. Bu məsələ beynəlxalq qayda-qanunlarla qadağan olunur, müvafiq konvensiyalarla tənzimlənir. Burada da Azərbaycanın ləyaqətli davranışı nümunə hesab oluna bilər. 2024-cü il aprelin 23-ü ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxış edən Prezident İlham Əliyev bununla bağlı demişdi: “Azərbaycan nə edə bilər? Heç nə. Tamamilə praktiki baxımdan heç nə. Biz Ukraynaya 30 milyon avrodan artıq humanitar və maliyyə yardımı etdik. Böyük Azərbaycan diasporunun olduğu və bir çox sosial infrastrukturun Azərbaycan tərəfindən bərpa edildiyi İrpen şəhərində yenidənqurma işləri aparırıq. Daha heç bir şey. Bizdən istənilsə də, biz Ukraynaya silah vermirik, bunu açıq şəkildə deyə bilərik, etməyəcəyik. Humanitar yardım – bəli, silah – yox, bu, mənim cavabımdır. Etnik, dini baxımdan bir-birinə çox yaxın olan iki xalq üçün bu, böyük faciədir. Müharibədən qaçmaq şansı var idimi? Məncə, var idi. Əvvəlki illərdə Ukrayna liderlərinin Rusiya ilə normal münasibətlər qurmaq şansı var idimi? Tam əminəm ki, var idi. Bəli, mən indicə Rusiya–Azərbaycan münasibətlərindən danışırdım. Biz qonşuyuq. Biz güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Biz bir-birimizin suverenliyinə hörmət edirik. Biz bir-birimizin işinə qarışmırıq. Rusiya ilə Ukrayna arasında belə ola bilməzdimi? Əlbəttə, mümkün idi. Ruslar Ukraynaya çox yaxın insanlardır. Niyə baş vermədi? Kimdir günahkar? Mənim fikrim var, amma bunu paylaşmayım. Amma məncə, 2000-ci ilin əvvəllərində şans əldən verildi. Ukraynanın güclü dövlət qurmaq şansı əldən verildi. Bu, mənim təcrübəmə və biliyimə əsaslanan şəxsi fikrimdir. Mən ilk prezidentdən başqa bütün Ukrayna prezidentlərini tanıyırdım və onlarla işləmişəm. Mən 2003-cü ildən bu kürsüdəyəm. Mən bir şey deyəndə bilirəm və təcrübəm olduğu üçün deyirəm, kimsə mənə nəsə deməyib. Mən Rusiya–Ukrayna münasibətlərində bir çox məqamların şahidi olmuşam: gərginlik, dostluq, düşmənçilik, lakin heç vaxt bu gün gördüyümüz səviyyəyə qədər çatmamışdı. Təəssüf ki, bu, faciəli vəziyyətdir və hər gün insanlar ölür. Dayandırılmalıdır. Kim dayandıra bilər? Mən bilmirəm. Yaddaşımdan bəzi epizodları açıqlaya bildiyim üçün maksimum dərəcədə açıq olmağa çalışdım”.

Mövzu ilə bağlı “XQ”yə şərh verən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** bildirdi ki, Ermənistan hökumətinin ordunun arsenalındakı sovet istehsalı olan müxtəlif silahları və hərbi texnikaları Rusiya–Ukrayna müharibəsi fonunda Kiyevə verməsi, bununla bağlı Qərblə gizli razılaşmalar əldə etdiyi barədə müxtəlif media orqanlarında yayılan xəbərlər, əlbəttə, ciddi məsələdir. Onun sözlərinə görə, Ermənistanın hələ də rəsmən Rusiya ilə strateji tərəfdaş olduğunu, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi qaldığını nəzərdən qaçırmaq olmaz: “Ermənistanın Ukraynaya hərbi texnika verməsi KTMT-nin nizamnaməsinə birbaşa ziddir. Eyni zamanda, İrəvanla Qərbdəki müəyyən qüvvələr arasında gizli danışıqların hansı səviyyədə olmasından xəbər verir. Hətta, bu silahların növləri, istehsal tarixləri barədə media orqanlarında dəqiq məlumatlar yayılıb. Ümumiyyətlə, Ermənistan hakimiyyətinin bu cür hərəkətlər etməsi ölkənin əvvəlki kimi müstəqil siyasət yürütmək imkanına malik olmadığından xəbər verir”.



Z.Məmmədov qeyd etdi ki, Ermənistan uzun illər işğalçı siyasət yürütmüş, ölkəmizin ərazi bütövlüyünü pozmuş, indi də konstitusiyasında Azərbaycana qarşı iddiaları saxlayan dövlətdir. Belə bir ölkənin özünü ərazi bütövlüyü pozulmuş Ukraynanın, guya, yanında imiş kimi göstərməsi ikiüzlülükdən başqa bir şey deyil. Rəsmi İrəvan bir tərəfdən Ukraynanın yanında olduğunu göstərir və bununla Qərbdən müəyyən dividendlər əldə edir. Digər tərəfdən isə biz bilirik ki, müharibə başlanandan sonra Rusiyanın sanksiyalardan yayınması üçün ermənilərin apardıqları müxtəlif maxinasiyalar nəticəsində Ermənistanın dövlət büdcəsinin gəlirləri dəfələrlə artıb. Bu, heç kəsə sirr deyil. Burada da biz yenə ikiüzlü, ikibaşlı siyasətin şahidi oluruq. Həmçinin, bu, iki stulda eyni vaxtda əyləşməyə cəhd etməkdir.

*Səxavət HƏMİD*
*XQ*

# İran niyə  Türk dünyasının həmrəyliyindən qorxur?

## *Tehran “Zəngəzur dəhlizi”ni buna görə “süngü” ilə qarşılayır*

**Əvvəllər haqqında söz açacağımız məsələ kluar söhbətləri kimi təsir bağışlayırdı. Yəni, bu barədə açıq fikir bildirən olmurdu. Hərçənd, həmin söhbətlərin reallıqla əlaqəli məqamlarının mövcudluğunu bilirdik. Söhbət İranın Türk dünyasına münasibətdəki tam əks mövqeyindən gedir. Daha doğrusu, İslam respublikasının Türk dünyasının bütövləşməsi ideyasını, bir növ, süngü ilə qarşılamasından. Bəli, indi İran, obrazlı desək, anti-türk süngülərini qınından çıxarıb. Yazımız bu haqdadır. Əlbəttə, başqa cəhətlərə də diqqət yetirəcəyik.**



Məlum olduğu kimi, Ermənistan 44 günlük müharibənin məğlubu kimi üzərinə düşən öhdəliyi yerinə yetirmir. Ölkə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əməl etmir. İndiki halda sənədin 9-cu bəndini yerinə yetirməkdən, yəni Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolu təmin etməkdən boyun qaçırır. “Dünyanın kəsişməsi” adlı avantüra irəli sürür və bu zaman ərazi bütövlüyünü və suverenliyini əldə bayraq edir. Tam aydındır ki, bu, bir oyundur və həmin oyunun sifarişçiləri var. Onların içərisində Qərbin müəyyən dairələrinin olduğunu bilirik. Ola bilər, bu dolaşıq anti-Azərbaycan və anti-türk dalğasında İranı görməyimiz təəccüb doğurmamalıdır. Hərçənd, Tehranın Qərbin Ermənistan üzərindən axıtdığı bulanıq sularda üzməsi qəribə gəlir.

İran Naxçıvana maneəsiz yol məntiqinə – “Zəngəzur dəhlizi” ideyasına qarşı çıxır. Türk dünyasının bütövləşməsini süngü ilə qarşılamaq da elə budur. Niyə təəccüblənmirik, məsələyə aydınlıq gətirmək üçün çox yaxın tarixə nəzər salaq. Deyək ki, 44 günlük müharibədən sonra Tehranın bir sıra düşüncə mərkəzləri Azərbaycanın zəfərinin ölkələri üçün strateji planda böyük itki olduğunu vurğulayırdılar. Onlar Qarabağın əldən çıxmasını məyusluqla qarşılayırdılar. Çünki bölgənin Türk dünyasında açar rolu oynadığını gözəl bilirdilər. Hər halda, tarixdən xəbərləri var. Axı tarix sərt reallıqlarla zəngin səhnələri özündə birləşdirir. O reallıqlarda Ermənistanın bir dövlət kimi mövcud olmadığı da, ölkəni imperialist dairələrin Qafqazda “xristian pazı” formalaşdırmaq məqsədi ilə yaratdıqları da yer alır.

Azərbaycanın tarixi torpaqları hesabına formalaşdırılmış erməni dövləti, sonra o dövlətin ərazilərinin genişləndirilməsi, nəhayət, Qarabağın Ermənistana birləşdirilməsi avantürası olan “miatsum” – görünür, bütün bunlar İrana sərf edirdi. Ona görə də torpaqlarımızın işğalı illərində sərhədlərin dəyişməzliyi ritorikasını qabartmırdı. Məgər bilmirdi ki, Ermənistanın niyyəti Azərbaycanın ərazilərinə sahiblənməkdir?! Çox yaxşı bilir, fəqət, susurdu.

Ancaq hazırda suverenliyini tam bərpa etmiş Azərbaycan Türk dünyasının bütövlük faktoru kimi çıxış etməkdədir. “Zəngəzur dəhlizi”nə qarşı istər Qərbdən, istərsə də İrandan olan təzyiqlər isə onu göstərir ki, imperializmin anti-türk mahiyyətli iki ziddiyyətli qütbü eyni cəbhədə birləşdirib. Ancaq ortada Rusiya faktoru da var. Nəzərə alaq ki, ermənilərin Qafqaza yerləşdirilməsi çar Rusiyasının əli ilə həyata keçirilmiş proses olub və çarizmin köçürmə siyasəti həm Qərbə, həm də İrana sərf edib.

Bəli, indi Rusiyaya sərf etməyən məsələlər meydana çıxıb. Erməni varlığının öz xislətinə uyğun şəkildə Kremlə qarşı nankorluğu aysberqin görünən tərəfidir. O da görünür ki, Qərb və İrandan fərqli olaraq, Rusiya “erməni kartından” istifadəyə keçmişin qalığı kimi baxmaqdadır. Axı hazırda bölgə ilə bağlı tamam başqa perspektivlər var və Moskva onların dəyərləndirilməsində maraqlıdır. Yəni, hadisə və proseslərə ənənəvi deyil, fərqli pəncərədən baxışın tərəfdarıdır. Əlbəttə, bu da Azərbaycan diplomatiyasının böyük uğuru, illərə söykənmiş gərgin fəaliyyətinin bəhrəsidir. Onu da bildirək ki, ölkəmizin uğurlu xarici siyasət kursu nəticəsində Qərbdə də Azərbaycana münasibətdə ciddi fikir ayrılıqları yaranıb və bu, xeyrimizə işləyən amildir.

Əlqərəz, Qərbin bəzi dairələri və İran hazırda Rusiyanın da dövlət səviyyəsində dəstəklədiyi görünən “Zəngəzur dəhlizi”nə qarşıdır. Mövcud fonda birincilərin erməni təəssübkeşliyi missiyasını ikinciyə təhvil verdikləri hiss olunur. Bu qarışıq labirintdə belə təəssürat yaranır ki, Qərb Ukrayna məsələsi müstəvisində, İran isə Cənubi Qafqaz cəbhəsində anti-Rusiya yönümlü xətt gerçəkləşdirməkdədir. Əslində, Rusiyaya arxadan bıçaq vurmaq da elə budur.

Ermənistana gəldikdə, o, şahmat lövhəsindəki piyadadır. Yəni, həmişəki “amplusındadır”. Mümkün təhlükə anında “peşka”nın qurban verilməsi qaçılmazdır. O da görünür ki, hələlik İran və Qərb Ermənistanı yüksəltmək niyyətlərinə köklənib. “Dünyanın kəsişməsi” fikrimizin təsdiqidir. Nəzərə alaq ki, məhz “Dünyanın kəsişməsi” Türk dünyasının bütövləşməsi yolundakı maneə, əngəldir. Onu aradan qaldırmağımız son dərəcə mühüm şərtdir.

Nə qədər ziddiyyətli səslənsə də deməliyik ki, “Zəngəzur dəhlizi” Ermənistan adlı süni dövlətin də gələcək mövcudluq faktorudur. Avantüradan uzaq, heç bir təhlükə törətməyən, qeyri-sabitlik yaratmayan mövcudluq faktoru. Ancaq bunu nə Qərbin müəyyən dairələri, nə də İran anlayır. Birinci Ermənistandan Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq üçün istifadə edir, ikinci isə özünün ənənəvi anti-türk baxışlarının reallaşdırılması naminə. Halbuki, Qərbdən fərqli olaraq, İran daha rasional düşünmək imkanına malikdir. Ölkə, ilk növbədə, Cənubi Qafqazla ənənəvi bağlılıq amilini nəzərə almalıdır. Nəzərə almalıdır ki, onun varlığı Azərbaycan, Rusiya və Türkiyə tərəfindən qəbul edilir, maraq və mənafeləri əsas götürülür ki, bunu təsdiqləyən ən böyük müstəvi “3+3” regional platformasıdır. Mövcud platforma Cənubi Qafqazdakı bərabərtərəfli əməkdaşlığın xoş niyyət plasdarmıdır. Qərbin oyunlarında iştirak bu plasdarmın əhəmiyyətini heçə endirir.

***

Bəli, Tehran “Zəngəzur dəhlizi”ni “süngü” ilə qarşılayarkən, yuxarıda sadaladıqlarımız ətrafında ciddi düşünməlidir. Amma düşünmür və belə təəssürat var ki, İranda anti-Azərbaycan və anti-Rusiya təmayülləri, sanki, bir-biri ilə çulğalaşır və proses fonunda hiyləgərliyə əl atılır. Məsələn, “Zəngəzur dəhlizi” ideyasının Rusiya üçün də sərfəli olmadığına dair tezislər qabardılır. Fikrimizin sübutu baxımından əvvəlcə İranın ingilisdilli “Mehr News” agentliyinin “Zəngəzur dəhlizi”ndən bəhs edən məqaləsi üzərində dayanaq.

Məqalədə bildirilib ki, Türk dünyasının birləşməsi İranın əleyhinə olduğu kimi, Rusiyanın da mənafelərinə uyğun deyil. Guya, Moskva dəhlizin açılmasına çalışmaqla, ciddi yanlışlığa yol verir. Məqalədə açıq şəkildə o da vurğulanır ki, hazırda İsraillə ciddi problem yaşayan İran “Zəngəzur dəhlizi” məsələsinin reallaşmaması naminə, hətta, iki cəbhədə belə vuruşmağa hazırdır. Yazının ən diqqətçəkən tərəfi oradakı siyasi spekulyasiyadır. Yəni, belə görüntü yaradılır ki, sanki hazırda Tehran Qərbə qarşıdır. İfadəyə diqqət yetirək: “NATO's Turani Corridor” (NATO-nun Turan dəhlizi).

Beləliklə, iddia olunur ki, Turan dəhlizini, yəni “Zəngəzur dəhlizi”ni NATO məhz Türkiyənin əli ilə həyata keçirmək istəyir. Bu cür yanaşma, necə deyərlər, bir güllə ilə iki dovşan vurmaqdır. Deməli, həm Rusiyanın anti-NATO kursu üzərinə fokuslanmaq, rus ictimai-siyasi fikrində qıcıq yaratmaq, həm də Moskva ilə Ankaranın münasibətlərinə zərbə vurmaq istəyi duyulur. Ümumən isə İranın siyasi elitasının var gücü ilə “Zəngəzur dəhlizi”nə qarşı çıxdığı ortadadır. Ötən sayımızda bu baxımdan İran parlamentinin Milli təhlükəsizlik komissiyasının üzvü Fədəhhüseyn Malikinin ultimativ tonda bildirdiklərindən bəhs etmişdik. Yada salaq ki, o, Moskvanın “Zəngəzur dəhlizi” məsələsində paradoksal addımlardan çəkinməli olduğunu vurğulamışdı. Komissiya sədrinin sözlərinə görə, İran diplomatiyası Rusiyanın addımlarına qarşı qəti cavaba hazırdır. “Rusiyanın “Zəngəzur dəhlizi”nə dəstəyi kürəyimizdən zərbədir”, – deyən deputat, həmçinin bildirmişdi ki, Kreml Fars körfəzində 3 ada məsələsinə görə Tehrandan sərt cavab alıb və eyni səhvi indi Zəngəzurda təkrarlayır.

F.Malikinin fikirlərini davam etdirən İran parlamentinin Xarici və təhlükəsizlik siyasəti komissiyasının keçmiş rəhbəri Heşmətullah Fəlahətpişe özünün sosial şəbəkə hesabında yazıb ki, xəbər axınlarının səs-küyündə Rusiyanın “Zəngəzur dəhlizi” ilə İran sərhədini, yəni Ermənistanın İranla sərhədini bağlamaq planı unudulmamalıdır. “Əvvəlki hökumət sövdələşməni Rusiyanın Ukraynadakı maraqları naminə qurban verdi. Yeni hakimiyyət Moskva ilə birtərəfli dostluq siyasətinin tələsinə düşməməlidir”, – deyən H.Fəlahətpişe, ilk baxışdan, son dərəcə absurd görünəcək fikri də gündəmə gətirib. O, iddia edib ki, guya, “Zəngəzur dəhlizi” Rusiya Prezidenti Vladimir Putinin İranın yeni hökuməti ilə ABŞ arasında kommunikasiya kanallarının formalaşması ehtimalının qarşısını almaq məqsədi daşıyan ilkin hücumudur. Göründüyü kimi, İranın siyasi elitası başını itirib. Bu elita təmsilçilərinin bir-birinə zidd baxışlar ortaya qoyması fikrimizin təsdiqidir. Yəni, ölkədə başını itirmiş fəlahətpişələr az deyil. Mövcud xüsusda İran parlamentinin digər üzvlərinin də fikirləri var.

Ümumən, iranlı parlamentarilərin mövqeyinin əsas məqamlarını həmin məqamlara verdiyimiz qısa şərhlərlə birlikdə təqdim edək: 1. “Zəngəzur dəhlizi” İranın milli təhlükəsizliyi və ərazi bütövlüyünə təhlükə yaradır. Bu, qondarma məntiqdir və Tehranın ənənəvi türk xofundan başqa bir şey deyil. 2. İran regionda sərhədlərin dəyişdirilməsinin əleyhinədir və nə olursa-olsun buna qarşı çıxacaq. Söhbət Ermənistanın müdafiəsindən gedir, halbuki konstruktiv yanaşılsa, buna heç bir ehtiyac yoxdur. 3. İran və Ermənistan arasında birbaşa sərhəd əlaqəsi bir neçə min illik tarixə malikdir və bütün ölkələr, o cümlədən, Rusiya bu sərhədlərə hörmət etməlidir. Görəsən, söhbət hansı minilliklərdən gedir? Axı ermənilərin Qafqaza köçürülmələrinin tarixi cəmi 200 ildir. Digər tərəfədən, beç bir halda, sərhədlərə hörmətsizlik kimi durum yoxdur. “Zəngəzur dəhlizi”nin mövcudluğu ənənəvi İran–Ermənistan əlaqəsini inkar etmir və xoş niyyət olsa, bu istiqamətdə konsensusa gəlmək mümkündür. Belə görünür, xoş niyyətdən əsər-əlamət qalmayıb. Haqqında söz açdığımız İrana arxadan zərbə ritorikası hakimdir.

Bu arada İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının daha bir üzvü Həsən Kaşkavi ölkənin Ali Dini Rəhbərinin regionda sərhədlərin dəyişdirilməməsi və buna uyğun olaraq tarixə zərrə qədər də təcavüz edilməməsi ilə bağlı bəyanatını xatırladıb. Onun sözlərinə görə, bölgədə sabitlik və dostluq sərhədlərdə sabitliyin olmasını və heç bir dəyişikliyin baş verməməsini tələb edir.

Kaşkavi də vurğulayıb ki, İran və Ermənistan arasında birbaşa sərhəd əlaqəsinin tarixi bir neçə min il əvvələ gedib çıxır və bütün ölkələr, o cümlədən, Rusiya buna hörmətlə yanaşmalıdır: “Mən Xarici İşlər Nazirliyinin nümayəndəsi olduğum dövrdə ictimai rəyin və ya elitanın bir hissəsinin müəyyən ölkələrə qarşı mövqe tutmasını tələb edən vəziyyətlər olub. Lakin biz həmişə dövlətlərin ərazi bütövlüklərinə hörmət prinsiplərini əsas tutmuşuq. Ümid edirik ki, Rusiya, Azərbaycan, Türkiyə, Ermənistan və bütün dövlətlər ərazi bütövlüyünə, müstəqilliyə hörmət və beynəlxalq sərhədlərin tanınması çərçivəsində təsirli addımlar atmağa çalışacaqlar”.

Türkiyə və Azərbaycanın “Zəngəzur dəhlizi”nin açılması ideyasının İranın milli təhlükəsizliyi və ərazi bütövlüyünə ciddi təhlükə yaratdığı fikrinin daha bir dəstəkçisi İran Əyalətlərinin Ali Şurasının üzvü Məhəmməd Sadiqidir. O bildirib ki, İranla Ermənistan arasındakı sərhəd ən qədim beynəlxalq sərhədlərdən biridir və bu sərhədin bağlanması geosiyasi təcrid yaradacaq: “Zəngəzur dəhlizinin tikintisi İslam respublikasının maraqlarına tamamilə ziddir və regionda gərginliyi artıracaq”, – deyən Sadiqinin nəzərinə çatdıraq ki, Azərbaycanın Naxçıvana yol məsələsində tələbi yerinə yetirilməsə, Ermənistan yenə təcriddə qalacaq. Çünki minilliklərdir mövcud olduğu iddia edilən İran – Ermənistan ənənəvi yolu həm müasir, həm də tarixi Azərbaycanın ərazisindən keçir. Yaxşı olar ki, Tehranda bunu da düşünsünlər.

Sonda ümumiləşdirmə apararaq, onu da deyək ki, İranın bütün dairələrində “Zəngəzur dəhlizi” barədə tam konsensusun və birliyin mövcudluğuna dair təəssürat var. O da görünür ki, Tehran regional və qeyri-regional güclər arasında siyasi rəqabətdə yer alır və bu, Ermənistanın mövqeyi ilə uzlaşan məqamdır. Bu məsələdə İranda nəinki anti-Rusiya, eləcə də anti-Türkiyə və anti-Azərbaycan demarşlarının, nəticə etibarilə Türk dünyasının birləşməsinə yönələn cəhdlərin şiddətlənəcəyini proqnozlaşdırmaq mümkündür. Əlbəttə, bu cəhdlərin heç bir səmərə verməyəcəyi də aydındır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Replika**



# Keşiş Baqrat spiker Aleni təhqir etdi

## *Yaxud “Artsax” sarsaqlığı ilə bağlı elegiya əvəzi*

**Ermənistanda qondarma “Artsax” mövzusu yenə gündəmdədir. Ancaq nisbətən fərqli formada. Məlum olduğu kimi, Ermənistan parlamentinin spikeri Alen Simonyan deyib ki, “Artsax respublikası”, yəni Qarabağdakı keçmiş separatçı rejim özünün rəhbər şəxslərinin qərarı ilə süqut edib. Spikerin səsləndirdiyi bu fikrə qarşı çıxanlar var.**

Ancaq əvvəlcə onu deyək ki, A.Simonyanın dedikləri hələ o deyil ki, rəsmi İrəvan Qarabağ avantürasından geri çəkilib. İkincisi, parlament sədrinin mövzuya yer verməsi Ermənistan rəhbərliyi ilə separatçı rejim arasındakı keçmişdəki ziddiyyətlərin təzahür formasındakı kiçik elementdir. Böyük elementin olmamasının səbəbi isə çox sadədir: Qarabağdakı qondarma quruluş yoxdur.

Bəli, Ermənistanda A.Simonyanın dediklərini süngü ilə qarşılayanlar var. Bu baxımdan Tavuş arxiyepiskopu, “Vətən naminə Tavuş” hərəkatının lideri Baqrat Qalstanyan öndədir. Çoxdandı yoxa çıxmış Qalstanyan erməni spikeri “Artsaxın öldüyünü” dediyinə görə təhqir edib: “Artsax barədə heç bir mənəvi dəyərləri olmayan, insanların üzünə tüpürən və parlamentin spikeri postunu tutan şəxs danışıb. Görünür, son günlərin “Artsax ab-havası ona və ağalarına çox pis təsir göstərib və onlar bu istiqamətdə hücuma keçmək əmri alıblar. Mən onun nə demək istədiyinə şərh vermək istəmirəm. Ancaq aydındır ki, zaman keçdikcə, bu adamların qorxu ilə yoğrulmuş sinizmi və özündənrazılıqları daha azğın xarakter alır”.

Qeyd edək ki, B.Qalstanyandan başqa da A.Simonyanı “topa tutanlar” var. Onlardan biri də “Artsax”ın qondarma parlamenti sədrinin vəzifələrini yerinə yetirən Qaqik Bahunçdur. O, yazıçı Mark Tvenin məşhur “Mənim ölümümlə bağlı xəbərlər şişirdilib” deyimini gündəmə gətirib. Guya ki, “Artsax”ın “ölümü” ilə əlaqədar deyilənlər şişirdilir.

Məsələ burasındadır ki, otuz ilə yaxın müddətdə həmin o “Artsax”ın sağ olduğuna dair sərsəmləmələr sabun köpüyünə bənzəyirdi. Əslində, haylar kimlərinsə uydurduqları yalanlara inanmışdılar. Özünü “prezident”, “baş nazir”, “nazir” kimi görənlər və bu xəstəliyi digər simptomlarla daşıyanlar meydana atılmışdılar.

İndi Bahunç da o ab-havadan çıxmayıb və bildirir ki, guya, “Artsax”ın qondarma parlamenti Qarabağ ermənilərinin bölgəyə qayıtmaları istiqamətində iş aparır. Necə aparır? Sən demə, “parlamentin” üzvləri Fransaya, Belçikaya, Yunanıstana səfərlər edir, görüşlər keçirirlər. Həqiqətən də, ortada reallıq hissini itirmişlərin tragikomik durumu var. Ən dəhşətlisi isə budur ki, ümumən Ermənistan bahunçların günündədir.

Əslində, böyük ölçüdə yanaşsaq, Simonyanın Bahunçdan, Qalstanyandan fərqi çox deyil. Əvvəldə də bildirdik ki, erməni spikerin dilə gətirdikləri heç də rəsmi İrəvanın Qarabağ avantürasından daşınmasının, ümumən işğalçılıq mahiyyətindən uzaqlaşmasının təzahürü deyil. Simonyan daha primitivdir. O, təmsil olunduğu komandanın “qarabağlılara” nifrətini təcəssüm etdirir. Əlinə düşən hər fürsətdə onları aşağılayır. İkincilər də bunun fərqindədirlər.

Nifrətdən söz düşmüşkən, Qarabağdakı sabiq separatçı rejimin təmsilçiləri ilə bağlı ən aşağılayıcı ifadələrin müəllifi baş nazir Nikol Paşinyanın özüdür. Həm Paşinyan, həm Simonyan, eləcə də hakim komandanın ayrı-ayrı rəsmiləri erməni cəmiyyətində belə bir fikir aşılayırlar: əgər separatçı rejimdə təmsil olunanlar, həqiqətən qorxmaz idilərsə, niyə bölgəni tərk etdilər. Nə üçün Azərbaycana qarşı döyüşüb ölmədilər?

Ölkə iqtidarı bu sayaq fikirləri Qarabağdakı sabiq separatçı rejimlə arasındakı uçurum səbəbindən qabardır. Çünki rejim 2020-ci ildən sonra, faktiki olaraq, ona qarşı çıxırdı. Eyni zamanda, Paşinyan hakimiyyətində yer alanlar psixoloji olaraq “Qarabağ kartını” kresloları üçün təhlükə sayır və bu səbəbdən həmin kartın özünü hansısa formada göstərməsi meylini qəbul etmirlər. Bu komandadakılardan olsa, separatçıların hamısının yeri Bakı həbsxanaları olmalıdır. Əlbəttə, haradasa onlara haqq qazandırmaq mümkündür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dünya şöhrətli alimlərimizin Vətən sevgisi




**Sentyabrın 10-da Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu Aynur Quliyeva və Reyhan Həsənovanın moderatorluğu ilə işini müxtəlif mövzularda davam etdirib.**

Əvvəlcə "Azərbaycan ilə Skandinaviya və digər Qərbi Avropa dövlətləri arasında elm və təhsil münasibətləri" mövzusu ətrafında danışılıb.

Çıxış edənlər beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafında elmi tədqiqatların rolunu vurğulayıblar. İsveçdən olan azərbaycanlı alim Səadət Kərimi yaşadığı ölkənin elmi-tədqiqat sahəsindəki təcrübəsindən bəhs edib.

"Proqnozlaşdırılma və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu" mövzusunda çıxış edən Yulduz Rəhimov (Kanada) diqqətə çatdırıb ki, 1968-ci ilə nisbətən 2023-cü ildə adambaşına düşən enerji istehsalı 10,6 dəfə artıb. Bərpaolunan enerji mənbələri ilə bağlı fikirlərini bölüşən alim insanların tələblərinin azaldılması, istifadə edilən mənbələrin sayının artırılmasının vacibliyini vurğulayıb.

"Məlumat elminin (data science) inkişafı Azərbaycanda prioritet sahələrdən biri ola bilər" mövzusunda çıxış edən Asəf Salmanov (ABŞ) daqiq elmlərə tələbin artdığını vurğulayaraq informatikanın müasir dövrdə inkişafından danışıb. O, süni intellekt və yeni informasiya texnologiyaları ilə bağlı fikirlərini bölüşüb.

Mehdi Gəncəli isə (Türkiyə) "1918–1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin müasir zamanda əks-sədası" mövzusu ətrafında danışıb. Azərbaycanın müstəqillik tarixinə nəzər salan alim həmin dövrdə nəşr edilən "Azərbaycan" qəzetinin əhəmiyyətini vurğulayıb.

Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin sədri Seymur Nəsirov (Misir) "Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar" mövzusunda fikirlərini bölüşüb. Alim 500-dən çox ərəb mənbəsini araşdırdığını və orada Bərdədən Zəncana qədər ərazilərin Azərbaycana aid olması faktı ilə rastlaşdığını diqqətə çatdırıb.

"Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələləri üzrə hazırkı yanaşma" mövzusunda fikirlərini bölüşən Toğrul İsmayıl (Türkiyə) iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. Türkiyədə təhsil alan gənclərimizin sayının kifayət qədər olduğunu deyən T.İsmayıl qardaş ölkədə çalışan azərbaycanlı alimlərin sayının da xeyli artdığını diqqətə çatdırıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində çalışan Nigar Məsimova (Rusiya) "Azərbaycan və Rusiya arasında elmi əməkdaşlığın xüsusiyyətləri və perspektivləri" mövzusunda danışıb.

Nobel mükafatçısı, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Bəxtiyar Siracov (Avstriya) "Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) virtual məkanda fəaliyyəti" ilə bağlı geniş məzmunlu çıxış edib.

DAAB-ın fəaliyyət planı haqqında danışan B.Siracov Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun əhəmiyyətini qeyd edib. Strateji planların qəbul ediləcəyini bir daha vurğulayan Nobel mükafatçısı Forumla bağlı bir il ərzində konkret nəticənin ortaya qoyulmalı olduğunu bildirib. Vurğulayıb ki, Azərbaycan hökuməti, Elm və Təhsil Nazirliyi konkret layihələr üçün kredit ayırmağa hazırdır və biz ortaya konkret iş qoyaraq bu etimadı doğrultmalıyıq.

Forumda müxtəlif mövzularda sessiyalar təşkil edilib. Elm sahələri üzrə qruplaşdırılmış iştirakçılar müzakirə olunan prioritet mövzular və ali məktəb rəhbərlərinin məruzələrində toxunulmuş məsələləri nəzərə alaraq, DAAB-ın strateji planlarının hazırlanması üzərində işləyiblər.

Tədbirin sonunda təşkil edilən yekun iclasda qısa, orta və uzaq müddətli strategiya planı hazırlanaraq qəbul edilib.

Qeyd edək ki, Diaspora İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə keçirilən tədbirə bu gün yekun vurulacaq.

Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edir.

*XQ*

# Mərkəzi Seçki Komissiyasının iclası



**Sentyabrın 10-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın sentyabrın 9-da keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasda öncə müraciətlər barədə ətraflı məlumat verilib, beynəlxalq müşahidə missiyalarının təmsilçilərinə, media nümayəndələrinə və maraqlı subyektlərə daxil olan müraciət və məlumatların hərtərəfli, obyektiv və şəffaf araşdırılması prosesində yaxından iştirak etmək üçün hər cür imkan yaradıldığı vurğulanıb. Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə də baxılıb.

# Fransa Koloniyalarının Azadlıq Cəbhəsi Parisin Azərbaycana səyahət xəbərdarlığını pisləyib

**Fransa Koloniyalarının Azadlıq Cəbhəsi Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatına cavab verib.**

Bəyanatda deyilir: "Fransanın Baş naziri hələ öz hökumətini formalaşdırmasa da, istefaya gedən daxili işlər nazirinin addımları və Fransa Xarici İşlər Nazirliyinin Azərbaycana bağlı həyəcan xəbərdarlıqları heç kəsi çaşdırmır.

Hökumətin növbəti addımı şübhəsiz ki, "Fransa vətəndaşları"na sözügedən ölkəni ziyarət etməyi tamamilə qadağan etmək olacaq. Bu qərar insan hüquqları və insan və malların sərbəst hərəkəti ilə ziddiyyət təşkil edir, tamamilə qeyri-qanuni olacaq. Fransa dövlətinin addımlarının yalnız bir məqsədi var – Bakı Təşəbbüs Qrupunun Birləşmiş Millətlər Təşkilatı çərçivəsində ona Qoşulmama Hərəkatı tərəfindən verilmiş mandatı yerinə yetirməyə davam etməsinə yol verməmək. Bakı Təşəbbüs Qrupunun missiyası dünyada kolonializmə son qoymaqdır.


DÉCLARATION
DU FRONT DES ORGANISATIONS DES DERNIÈRES COLONIES SOUS DOMINATION FRANÇAISE

Biz öz tərəfimizdən Bakı Təşəbbüs Qrupu ilə BMT-nin müəyyən etdiyi çərçivədə, nəhayət müstəqilliyimizi əldə etmək və xalqlarımızın maraqlarını qorumaq naminə zəruri hesab etdiyimiz hər hansı digər tərəfdaşla bundan sonra da işləyəcəyik".

Bəyanatı Fransa müstəmləkəsi altında olan ərazilərdəki 14 siyasi hərəkat rəhbəri imzalayıb.

*XQ*

# Azərbaycan XİN-in Paşinyana cavabı

*(əvvəli 1-ci səhifədə)*

"Bir daha xatırladırıq ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Guya, Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialara gəldikdə bir daha qeyd edək ki, Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Almatı bəyannaməsi çərçivəsində Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə baş nazirin açıqlamasına gəldikdə, baş nazirin təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini işğal altında saxladığı faktını xatırlatmaq istərdik.

Kommunikasiyaların açılması məsələsində də Ermənistan baş naziri növbəti dəfə üzərinə götürdüyü öhdəlikləri yanlış şərh edib. Üçtərəfli Bəyanatın 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarət necə təşkil olunacağı açıq-aydın yazılıb.

Ümumilikdə, üçtərəfli Bəyanat imzalanandan sonra öhdəliklərinə zidd olaraq 2023-cü ilin sentyabr ayınadək Azərbaycan ərazilərində hərbi fəaliyyətini davam etdirmiş və erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmayan Ermənistan tərəfinin, guya, qaçqın və məcburi köçkünlərin geri qayıtmasına mane çilik törətdiliyini, yerli ermənilərə qarşı etnik təmizləmə həyata keçirildiyini, hərbi əsirlərin qaytarılmadığını iddia etməsi reallıqların təhrif olunmasıdır. Bununla yanaşı, 2023-cü il anti-terror tədbirlərindən sonra erməni əsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçməsinin etnik təmizləmə kimi qələmə verilməsi növbəti böhtandır.

Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hər birini Ermənistana təhvil verib. Lakin Azərbaycan tərəfindən qaytarıldıqdan sonra hərbi əsirlərin Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına "qayğısı" kontekstində xüsusi təəccüb doğurub.

Müxtəlif platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq", – XİN sözçüsü bəyan edib.

*XQ*

# Baş prokuror Abşeronda qəbul keçirib



**Sentyabrın 10-da Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 31 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

# Ədliyyə naziri Qazaxıstanda



**Ədliyyə naziri Fərid Əhmədov Qazaxıstana səfəri çərçivəsində həmin ölkənin Ədliyyə naziri Azamat Yeskarayev ilə görüşüb.**

Görüşdə ortaq soykök və tarixi-mədəni əlaqələrə malik Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində davam etdiyi vurğulanıb. Qeyd edilib ki, dövlət başçıları arasında sıx münasibətlər, eləcə də qarşılıqlı yüksək səviyyəli səfərlər ölkələr arasında əlaqələrə və ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Görüşdə ədliyyə sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, iki ölkə arasında müvafiq sahə üzrə müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də müasir tendensiya və təcrübələrin öyrənilməsinin vacibliyi vurğulanıb.

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Memorandum" imzalanıb.

*XQ*

# Məcburi köçkünlərin müraciətləri dinlənilib



**Sentyabrın 10-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev növbəti qəbul keçirib.**

Məcburi köçkünlərin müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Onlara bildirilib ki, müraciətləri və qaldırdıqları məsələlər araşdırılacaq, qanunvericiliyə uyğun şəkildə cavablandırılacaq.

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 382** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qara və əlvan metal qırıntı və tullantıları ixracının tənzimlənməsi sahəsində əlavə tədbirlər və "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyun tarixli 112 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli və 17 iyul tarixli 342 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7204 10 000 0, 7204 21 100 0, 7204 21 900 0, 7204 29 000 0, 7204 30 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "7" rəqəmi "500" rəqəmləri ilə əvəz edilsin;

1.2. 7204 41 100 0, 7204 41 910 0, 7204 41 990 0, 7204 49 100 0, 7204 49 300 0, 7204 49 900 0, 7204 50 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5" rəqəmi "500" rəqəmləri ilə əvəz edilsin;

1.3. 7404 00 100 0, 7404 00 910 0, 7404 00 990 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq - 15 ABŞ dolları, 31.12.2024-cü il tarixinədək - 10 %, lakin 1000 kq-a 300 ABŞ dollarından az olmamaqla*" sözləri "50%, lakin 1000 kq-a 4000 ABŞ dollarından az olmamaqla*" sözləri ilə əvəz edilsin;

1.4. 7503 00 100 0, 7503 00 900 0, 8101 97 000 0, 8102 97 000 0, 8103 30 000 0,8104 20 000 0, 8105 30 000 0, 8108 30 000 0, 8109 31 000 0, 8109 39 000 0, 8110 20 000 0, 8111 00 190 0, 8112 13 0000, 8112 22 000 0, 8112 52 000 0, 8112 61 000 0, 8112 92 210 0, 8113 00 400 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununa "0" rəqəmindən sonra "(50%*)" sözləri əlavə edilsin;

1.5. 7602 00 110 0, 7602 00 190 0, 7602 00 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə, %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq - 15 ABŞ dolları*" sözləri və 7802 00 000 0, 7902 00 000 0, 8002 00 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "1000 kq 15 ABŞ dolları*" sözləri "50%, lakin 1000 kq-a 1000 ABŞ dollarından az olmamaqla*" sözləri ilə əvəz edilsin;

1.6. 8106 90 000 0 alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8106 90 000 | – digərləri | | |
| 8106 90 000 1 | – – tullantılar və qırıntılar | – | 0 (50%*) |
| 8106 90 000 9 | – – digərləri | – | 0 |

1.7. 8112 31 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8112 31 000 | – – emal olunmamış; tullantılar və qırıntılar toz | | |
| 8112 31 000 1 | – – – tullantılar və qırıntılar | – | 0(50%*) |
| 8112 31 000 9 | – – – digərləri | – | 0 |

1.8. 8112 41 000 0 alt yarımmövqeyinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8112 41 000 | – – emal olunmamış; tullantılar və qırıntılar toz | | |
| 8112 41 000 1 | – – – tullantılar və qırıntılar | – | 0(50%*) |
| 8112 41 000 9 | – – – digərləri | – | 0 |

1.9. "QRUP 75"in və "QRUP 81"in cədvəllərindən sonra hər iki halda aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

**"Qeyd.**

Bu mal qrupuna daxil olan alt yarımmövqelərin 4-cü sütununda qeyd edilmiş ulduz işarəsi ixrac gömrük rüsumlarının dərəcələrini göstərir.".

**2** Bu Qərar dərc edildiyi gündən 60 gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 383** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***"İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 384** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 noyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 may tarixli 70 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 noyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1074 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nın "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin kursantlarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 2-1 nömrəli norması"nın adında "Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin" sözləri "Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 385** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda və 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 may tarixli 247 nömrəli və 17 iyul tarixli 341 nömrəli qərarları) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 40-cı hissəsində "Yaşayış binalarının, o cümlədən mənzillərin" sözləri "Tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 336) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nın 1.5-ci bəndində "İstehlakçıların STTSAS-a qoşulması üçün texniki şərtlərin verilməsi və" sözləri "Tikinti obyektlərinin STTSAS-a" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 388** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında***

"Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1064 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın III bölməsinə aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 389** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***"Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 390** **Bakı şəhəri, 4 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1144-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 779 (Cild I) ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nın 1.6-cı bəndində "və ya beynəlxalq" sözləri ", xüsusi mühafizə və ya" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 391** **Bakı şəhəri, 4 sentyabr 2024-cü il**

***"Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği"nin təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1132-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 may tarixli 65 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği" təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarın 1-ci hissəsi İlə təsdiq edilən Qaydada göstərilən maliyyələşdirmə məsələləri Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 387** **Bakı şəhəri, 3 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması ilə bağlı fəaliyyətin optimallaşdırılması, habelə bu sahədə yaranmış problemlərin və uyğunsuzluqların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583) ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 1.2.4-cü yarımbənddən "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində" sözləri çıxarılsın.

**2** 2.6-cı bənddən "və yük" sözləri çıxarılsın, "sadələşdirilmiş vergi" sözlərindən sonra ", məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları" sözləri, birinci halda "asılı olmayaraq" sözlərindən sonra "geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir" sözləri əlavə edilsin və həmin bənddə hər iki halda "və məcburi dövlət sosial" sözləri ", məcburi dövlət sosial sığorta və icbari tibbi" sözləri ilə əvəz edilsin.

**3.** 4-cü hissə üzrə:

3.1. 4.2.2-ci və 4.3.2-ci yarımbəndlər ləğv edilsin;

3.2. 4.2.4-cü və 4.3.4-cü yarımbəndlərə "yazılı" sözündən sonra "və ya Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində yaradılmış "Vahid elektron lövhə" bölməsi vasitəsilə tərtib edilmiş elektron" sözləri əlavə edilsin;

3.3. 4.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.4. Vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə yol verilmir. Məcburi dövlət sosial sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin məcburi dövlət sosial sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, işsizlikdən sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə, icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin işsizlikdən sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsinə yol verilmir.";

3.4. 4.4-1-ci bənd ləğv edilsin;

3.5. 4.7-ci bənddə "və 4.2.2-ci yarımbəndləri" və "və 4.3.2-ci yarımbəndləri" sözləri "yarımbəndi" sözü ilə əvəz edilsin;

3.6. 4.11-ci bəndin birinci cümləsində "ərizənin və şəxsi vərəqədən çıxarışın surətləri" sözləri "yazılı ərizənin surəti və ya bu Qaydaların 4.2.4-cü və 4.3.4-cü yarımbəndlərinə uyğun olaraq tərtib edilmiş elektron ərizənin, habelə şəxsi vərəqədən çıxarışın "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələbinə uyğun surətləri" sözləri ilə əvəz edilsin, həmin cümləyə "ödəmənin" sözündən sonra "müvafiq olaraq" sözləri əlavə olunsun və "müvafiq sosial təminatı və müdafiəni həyata keçirən orqana" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna (bundan sonra - Dövlət Sosial Müdafiə Fondu), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə (bundan sonra - Dövlət Məşğulluq Agentliyi)" sözləri ilə əvəz edilsin;

3.7. 4.12-ci bənddən "və işsizlikdən sığorta" sözləri çıxarılsın və həmin bənddə "isə sosial təminatı və müdafiəni həyata keçirən orqanların" sözləri "Dövlət Sosial Müdafiə Fondunun, işsizlikdən sığorta haqlarının, hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının qaytarılmasına münasibətdə Dövlət Məşğulluq Agentliyinin" sözləri ilə əvəz edilsin;

3.8. 4.14-cü bənddə "və 4.2.2-ci yarımbəndləri" və "və 4.3.2-ci yarımbəndləri" sözləri "yarımbəndi" sözü ilə, "sosial təminatı və müdafiəni həyata keçirən orqana" sözləri "Dövlət Sosial Müdafiə Fonduna, Dövlət Məşğulluq Agentliyinə" sözləri ilə əvəz edilsin.

**4** 5-ci hissə üzrə:

4.1. adında "sosial təminatı və müdafiəni həyata keçirən orqanların" sözləri "Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Məşğulluq Agentliyinin" sözləri ilə əvəz edilsin;

4.2. 5.1-ci bənddə "sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin;

4.3. 5.3-cü bəndin ikinci cümləsində "Sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" və "sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin;

4.4. 5.4-cü bəndin birinci cümləsinə "orqanlara" sözündən sonra "vergilər üzrə" sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsində "Sosial təminatı və müdafiəni həyata keçirən orqanlar" sözləri "Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Odlar yurdu” “təmiz od”u günəşdən, küləkdən, sudan alır

**Bakıda İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən “Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda konfransda iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, bu potensialdan istifadə ilə bağlı dünyanın aparıcı enerji şirkətləri ilə dövlət – özəl sektor tərəfdaşlığı çərçivəsində mühüm layihələr həyata keçirilir. Bunun nəticəsində 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpaolunan enerji üzrə qoyuluş gücü payının 30 faizə çatdırılacağı gözlənilir.**

İqtisadiyyat nazirinin sözlərinə görə, “Yaşıl enerji” zonası elan olunan Qarabağ və Şərqi Zəngəzur bu sahədə xüsusi rol oynayır. Bu ərazilər zəngin “yaşıl” enerji potensialına malikdir. Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında günəş enerjisi, Laçın və Kəlbəcərdə isə külək və su elektrik enerjisi ehtiyatı yüksək qiymətləndirilir. Hökumət Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafının stimullaşdırılması üçün təşviq mexanizmlərinin, eləcə də güzəştlərin tətbiqini, həmçinin stimullaşdırıcı layihələri diqqətdə saxlayır.

Ümumilikdə, “yaşıl” iqtisadiyyat əhatəli məsələ olduğu üçün burada bütün aidiyyəti dövlət qurumları, bizneslər, assosiasiyalar, akademik dairələr və ictimaiyyətin birgə fəaliyyəti vacibdir. Konfransın məqsədi də məhz çoxsaylı maraqlı tərəfləri bir araya gətirməklə mövzu ətrafında fikir mübadiləsi aparmaq, səyləri birləşdirməkdir.

Beləliklə, bu gün ölkəmizdə iqlim dəyişikliyi və maliyyələşdirmə haqqında zəruri məlumat və biliklərin, müvafiq bacarıq və potensialın, həmçinin texnologiyaya çıxışın artırılması, ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinin gücləndirilməsi ilə “yaşıl” iqtisadiyyatın formalaşması uğurla həyata keçirilir, hökumətin iqtisadi siyasəti müsbət göstəricilərlə özünü büruzə verir.

İqtisadiyyat nazirinin sözlərinə əsaslanıb qeyd edə bilərik ki, hazırda Azərbaycanda “yaşıl” iqtisadiyyatın inkişafı, “yaşıl” layihələrin icrası iqtisadi səmərəliliklə yanaşı, ekoloji təhlükəsizliyin qorunmasına hesablanıb. Həmçinin “yaşıl” biznesin inkişafı üçün əlverişli normativ bazanın formalaşdırılmasına, bir sıra dəstək alətlərinin tətbiqinə başlanılıb. Son bir neçə ildə həyata keçirilən vergi siyasətində “yaşıl” iqtisadiyyatın dəstəklənməsi ilə bağlı qanunverici təşəbbüslər yer alıb. Ətraf mühitin qorunması üçün vergi güzəştləri, köhnə maşınların ölkəyə idxalının məhdudlaşdırılması, avtomobillərin utilizasiyası, elektrik və hibrid avtomobillərin idxalının stimullaşdırılması, alternativ enerjinin dəstəklənməsi sahəsində güzəştlər və s. kimi layihələr ölkə gündəliyinin “yaşıl” enerji ilə bağlılığından irəli gəlib.

M.Cabbarov, həmçinin bildirib ki, respublikada ortamüddətli perspektivdə “yaşıl” enerjinin vergi siyasəti ilə dəstəklənməsi davam etdiriləcək. Başqa sözlə, iqlim dəyişikliyinə qarşı mübarizə və “yaşıl”



texnologiyalardan istifadənin genişləndirilməsi məqsədilə ekoloji və “yaşıl” vergilərin tətbiq dairəsi müəyyənləşdirilərək genişləndiriləcək. Bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, karbon emissiyasının azaldılması üçün “karbon vergisi” və ya analoji verginin tətbiqi imkanlarının qiymətləndirilməsi diqqətdə saxlanılacaq.

“Yaşıl” iqtisadiyyata dəstək tədbirlərindən söz düşmüşkən, M.Cabbarovun fikrincə, sənaye parklarını, xüsusilə tullantıların təkrar emalı sahəsində ixtisaslaşan Balaxanı Sənaye Parkı ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi istiqamətində mühüm nəticələr əldə edib. Müasir texnologiyalar əsasında qurulan bu müəssisə ötən illər ərzində qeyri-neft sektorunun inkişafı, istehsal sahəsində məşğulluğun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı səmərəli fəaliyyət göstərib.

Hazırda sahibkarların “yaşıl” layihələrini Sahibkarlığın İnkişafı Fondu maliyyələşdirir. İndiyədək fondun güzəştli kreditlərindən yararlanan “yaşıl” layihələr təkrar emal, alternativ enerji mənbələrinə keçid, elektromobillər üçün elektrik doldurma məntəqələrinin yaradılması kimi istiqamətləri əhatə edib. Belə layihələr, həmçinin qrant, “Startap” şəhadətnaməsi, daxili bazar araşdırmasının aparılması, təlim, sərgilərə, maliyyə imkanlarına çıxış kimi alətlərlə özəl bölməni dəstəkləyib. Eyni zamanda, kiçik və orta biznes (KOB) ümumi daxili məhsulun artmasına, iş yerlərinin yaradılmasına, məşğulluğa, azad olunan ərazilərin iqtisadi reintegrasiyasına mühüm töhfələr verib.

Hazırda ölkəmizdə biznesin 99 faizindən çox hissəsini KOB subyektləri təşkil edir. Bu baxımdan, “yaşıl” artımın və “yaşıl” iqtisadiyyata keçidin təmin edilməsi böyük ölçüdə bu sektorun “yaşıl” transformasiyasından keçir. İstilik effekti yaradan qazların emissiyasında daha çox pay sahibi olan tikinti, daşıma, sənaye, energetika, kənd təsərrüfatı kimi sektorlarda kifayət qədər KOB subyekti fəaliyyət göstərir. KOB-ların enerji və xammal baxımından səmərəli texnologiya və təcrübələrin tətbiqinə önəm verməsi iqtisadiyyatda rəqabət qabiliyyətini daha da artırır.

Dünya təcrübəsi də göstərir ki, KOB-lar çox vaxt təmiz texnologiyalar və biznes modellərində daha qabaqcıl olur. Bu bölmənin çevikliyi kiçik və orta biznesi yeni tendensiyalara tez uyğunlaşmağa, innovasiyaları mənimsəməyə imkan verir ki, bu da son nəticədə sürətlə trendə çevrilən “yaşıl” iqtisadiyyatda vacib amildir.

Hazırda ekoloji təmiz texnologiyaların tətbiqinin və “yaşıl” istehsalın artırılması, təkrar emal, çirklənmiş ərazilərin bərpasının təşviqi kimi məsələlərlə bağlı qarşıda mühüm vəzifələr durur. Bir sözlə, ətraf mühiti qorumaq prinsipi əsasında iqtisadi tərəqqi və sosial rifahın yüksəldilməsi kimi məsələlər diqqətdə saxlanılır. Bu isə özəl sektorun, xüsusilə kiçik və orta biznesin rolunu daha da gücləndirir.

# Azərbaycan Avropanın əsas qaz tədarükçüsünə çevrilir

*Bu ilin 8 ayında qitə ölkələrinə 8 milyard kubmetrdən çox qaz ixrac edilib*

**Bu ilin yanvar–avqust aylarında operativ məlumatlara əsasən, Azərbaycanda neft –kondensat hasilatı 19,3 milyon ton, ixracı isə 16 milyon ton olub. Bu barədə energetika naziri Pərviz Şahbazov “X” sosial şəbəkəsindəki hesabında bildirib.**

Nazir əlavə edib ki, bu dövrdə 800 milyon kubmetr artımla hasil edilmiş 33 milyard kubmetr təbii qazın 16,4 milyard kubmetri ixrac olunub. Hesabat dövründə Azərbaycandan Avropaya 8,4 milyard kubmetr qaz ixrac olunub. Qaz satışı ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz artıb.

Məlumata görə, ötən aylar ərzində Türkiyəyə 6,5 milyard kubmetr, Gürcüstana isə 1,5 milyard kubmetr qaz ixrac olunub. Bundan əlavə, hesabat dövründə Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyəyə 3,7 milyard kubmetr qaz nəql edilib.

Qeyd edək ki, Azərbaycan qazının Avropaya tədarükü Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək isə bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.



Məlumat üçün bildiririk ki, TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Bolqarıstana “mavi yanacağ”ın nəqli TAP-a birləşdirilən Yunanıstan–Bolqarıstan İnterkonnektoru (IGB) ilə həyata keçirilir. Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərin illik ötürücülük qabiliyyətinin 3–5 milyard kubmetr olacağı gözlənilir. Bir qədər əvvəl isə bu ölkənin “Bulgargaz EAD” dövlət şirkəti “Şahdəniz-2” yatağından 1 milyard kubmetr qazın tədarükü üçün Şahdəniz konsorsiumu ilə müqavilə imzalayıb.

Yeri gəlmişkən, Bolqarıstanın “Asarel Medet” dağ-mədən zənginləşdirmə kombinatı Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə birlikdə ölkənin paytaxtı Sofiya şəhərindən 91 kilometr şərqdə, Pazarcik əyalətində yerləşən Panaqyurişte şəhərinin qazlaşdırılmasını həyata keçirməyi planlaşdırır. Bu barədə Bolqarıstan şirkətinin icraçı direktoru Nikolay Peltekov məlumat verib. O, SOCAR ilə birlikdə rəhbərlik etdiyi şirkətin yerləşdiyi Panaqyurişte bələdiyyəsinin qazlaşdırılması layihəsini hazırladıqlarını diqqətə çatdırıb. N. Peltekovun sözlərinə görə, gələn il bu bələdiyyənin inzibati mərkəzi olan Panaqyuriştenin birgə qazlaşdırılmasına başlanılması planlaşdırılır.

O qeyd edib ki, bu layihənin həyata keçirilməsi yaşayış evlərinin, əsasən, bərk yanacaqla qızdırılan regiona son dərəcə müsbət təsir göstərəcək. N.Peltekov onu da xatırladıb ki, bu ilin iyun ayında SOCAR Bolqarıstanın sənaye müəssisələrinə, o cümlədən “Asarel Medet” kombinatına qaz tədarükünə başlayıb: “Biz strateji tərəfdaşımız olan SOCAR-ın uzunmüddətli perspektivdə bizi rəqabətqabiliyyətli qiymətlərlə qazla təmin edəcəyini gözləyirik”.

Xatırladaq ki, “Asarel Medet” kombinatı Bolqarıstanda mis və digər filiz növlərinin açıq üsulla hasilatını və emalını həyata keçirən ən böyük şirkətdir. Kombinat yüksək keyfiyyətli mis konsentratları və katod misi istehsal və tədarük edir. Bu il mayın 8-də SOCAR və “Asarel Investment” (“Asarel Medet” kombinatının törəməsi) arasında Anlaşma Memorandumu imzalanıb.

# Bakıda “şirin” yarmarka

*Arıçılar builki satış-sərgiyə 120 ton bal çıxarıblar*

**Sentyabrın 9-da Bakıda arıçılıq məhsullarının 24-cü respublika sərgi-satış yarmarkası öz işinə başlayıb. Kənd Təsərrüfatı Nazirliyi və “Azərbaycan Arıçılar Assosiasiyası” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən yarmarkaya ölkənin 39 rayonundan 275 arıçı tərəfindən 120 tona yaxın məhsul çıxarılıb.**

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, satışa çıxarılan malların 105 tonu bal, 12 tona yaxını şan, 3 tonu isə digər arıçılıq məhsullarıdır. Sentyabrın 29-na qədər davam edəcək yarmarka hər gün saat 09:00-dan 19:00-a qədər Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ünvanında (“Gənclik” metro stansiyasının yaxınlığı) fəaliyyətdə olacaq.




Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları arıçıların iştirakı ilə yarmarkada satışa çıxarılan məhsullardan nümunələr götürərək laboratoriya şəraitində yoxlayıblar. Göstəriciləri keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğun olmayan məhsullar yarmarkada satışa buraxılmayıb.

Qeyd edək ki, yarmarkaya qeydiyyat onlayn şəkildə bal.kendden.az saytı vasitəsi ilə həyata keçirilib. Burada arıçılara fəaliyyət göstərdikləri rayonların arıçı sayına uyğun olaraq proporsional qaydada müvafiq sayda yer ayrılıb.

Yarmarkada iştirak üçün hər bir arıçıya iyulun 26-na qədər arıçılıq təsərrüfatlarını Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçərkən etdiyi bəyana uyğun olaraq minimum 40 arı ailəsinə malik olması tələbi qoyulub. Hər arıçı yarmarkaya maksimum 400 kiloqram bal və maksimum 30 ədəd arı şanı satışa çıxara bilib.

# “Abşeron” yatağı uzun illər ölkəyə qaz və kondensat verəcək

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Abşeron” qaz-kondensat yatağında hasilata başlanılandan bu günədək, təqribən, 1 milyard 800 milyon kubmetr qaz və 700 min tona yaxın kondensat hasil olunub.**



“XQ”yə Energetika Nazirliyindən verilən məlumatda bildirilib ki, “Abşeron” yatağının kəşfi 2011-ci ilin sentyabrın 9-da elan edilib. Yatağın ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir.

Xatırladaq ki, “Abşeron” qaz–kondensat yatağı Cənubi Xəzər neftli-qazlı hövzəsinin Abşeron arxipelaqında, Bakı şəhərindən 85–100 kilometr şərqə doğru dənizin, təxminən, 350–550 metr dərinliyində yerləşir. İlk vaxtlarda yatağın işlənilməsini SOCAR və “TotalEnergies”ın birgə operatoru olan “JOCAP” şirkəti həyata keçirib. Ötən il avqustun 4-də isə “Abşeron” layihəsinə daha bir səhmdar – Abu Dabi Milli Neft Şirkəti (ADNOC) qoşulub. Beləliklə, SOCAR və “TotalEnergies” şirkətlərinin hər biri 35 faiz, ADNOC isə 30 faiz səhmə malik olmaqla səhmdarların yeni pay bölgüsü formalaşıb.

# Ölkəmiz beynəlxalq ərzaq təhlükəsizliyi forumunda

**Azərbaycan Özbəkistanın paytaxtı Daşkənddə keçirilmiş “Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin Ərzaq Təhlükəsizliyi və Dayanıqlı İnkişaf Məqsədləri” beynəlxalq forumunda təmsil olunub.**




Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, forumda Azərbaycanı kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov təmsil edib.

Forumda dənizə çıxışı olmayan ölkələrdə müasir texnologiyalar əsasında dayanıqlı kənd təsərrüfatının qurulması, ərzaq təhlükəsizliyinin reallaşdırılması, kənd təsərrüfatı məhsullarının ticarəti, iqlim dəyişikliyinə uyğunlaşma və logistika məsələləri müzakirə olunub.

Açılış mərasimində Özbəkistanın Baş naziri Abdulla Aripov, Avropa İttifaqının kənd təsərrüfatı üzrə komissarı Yanuş Voyçexovski və Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun prezidenti Alvaro Larios çıxış edərək iqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri, ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi, aqro-ərzaq sistemlərinin mövcud vəziyyəti və transformasiyası məsələlərinə toxunublar.

Elçin Zeynalov Azərbaycanın hazırda regionda iqtisadiyyatı sürətlə inkişaf edən ölkə olduğunu diqqətə çatdırıb. Nazir müavini, eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi yolu ilə milli aqro-ərzaq sistemlərinin inkişaf etdirilməsinin əsas vəzifələrdən biri kimi qarşıya qoyulduğunu bildirib. Azərbaycanın qlobal çağırışlardan irəli gələn təşəbbüslərə böyük həvəslə qoşulduğunu deyən nazir müavini beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlığın davam etdiyini vurğulayıb.

Aqrar sahədə rəqəmsal və innovasiyaya keçidi zəruri sayan Elçin Zeynalov əlavə edib ki, rəqəmsal texnologiyalar iqtisadiyyatın inkişafına təsir göstərir, kənd təsərrüfatı və ərzaq bazarlarını yenidən formalaşdırır: “Məhdud resurslardan səmərəli istifadə etmək üçün kənd təsərrüfatının hər bir sektorunda rəqəmsallaşma tələb olunur. Bu dəyişiklik həm də iqlim dəyişikliyi riskinin azaldılmasını və uyğunlaşmasını şərtləndirir.

Nazir müavininin bildirdiyinə görə, hazırda ölkəmizdə aqrar sektorun müasir və rəqəmsal kənd təsərrüfatına çevrilməsi prosesi həyata keçirilir. Həmçinin kənd yerlərini inkişaf etdirmək və dəyər zəncirinə inteqrasiya etmək üçün rəqəmsal texnologiyalardan yararlanılır. Avrasiya regionunda mühüm tranzit və logistika mərkəzi olan Azərbaycanda həyata keçirilən layihələr “Şərq–Qərb” və “Şimal–Cənub” nəqliyyat dəhlizləri arasında mühüm ticarət körpüsü rolunu oynayır. Bu dəhlizlər ticarət əlaqələrimizin inkişafına böyük fayda verə bilər.

# Fəal vergi ödəyiciləri 3 faiz artıb

**Azərbaycanda fəal vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə sentyabrın 1-nə 3 faiz artaraq 786 minə çatıb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, aktiv ƏDV ödəyicilərinin sayı 50,4 min, aktiv təsərrüfat subyektlərinin sayı 211 min (ilin əvvəlinə nisbətən müvafiq olaraq 10,4 faiz və 3,1 faiz çox) olub.



*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Ekoloji investisiyalar təmiz iqtisadiyyata yeni yol açır

**COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, Azərbaycan Mərkəzi Bankının “yaşıl” maliyyənin inkişafı məqsədilə hazırladığı “yaşıl taksonomiya” vasitəsilə ölkədə iqtisadi fəaliyyət “yaşıl” standartlar əsasında təsnifləşdiriləcək, beləliklə də, müəssisələr dayanıqlı və ekoloji təmiz investisiyalarla daha çox dəstək alacaq.**





M.Babayevin sözlərinə görə, taksonomiya kiçik və orta bizneslərin (KOB) “yaşıl keçid”ini maliyyələşdirmək üçün mövcud maliyyə resurslarından daha səmərəli istifadə etməyə şərait yaradır. İnnovasiya sahəsində unikal imkanlara malik olan KOB sistemi daha çevikdir, yeni texnologiyaların və iş modellərinin tez bir zamanda tətbiqini gerçəkləşdirir. Ona görə də “yaşıl” iqtisadiyyata keçid zamanı bu çeviklikdən istifadə edilərək təmiz enerji mənbələrinə, enerji səmərəliliyi və tullantıların azaldılması texnologiyalarına sərmayənin artırılması zərurəti qarşıya çıxır. Bu, həmçinin iqlim məqsədlərini həyata keçirmək üçün əhəmiyyətli addımdır. Azərbaycan hökuməti bu addımların atılması ilə iqtisadiyyatın karbon intensivliyini azaldacağına, KOB-ların rəqabət qabiliyyətinin artırılacağına inanır.

KOB-ların dayanıqlı təchizat zəncirlərinə inteqrasiyası üçün böyük şirkətlərin də onlarla əməkdaşlığı zəruridir. “Yaşıl” KOB resurs mərkəzlərinin yaradılması isə kiçik və orta biznes strukturlarının daha dayanıqlı təcrübələrə keçidini asanlaşdırır və onların lazımi bilik, məsləhət və texnologiya ilə təminatını gerçəkləşdirir.

M.Babayev əlavə edib ki, COP29 Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə mövqeyini gücləndirir. Bu nüfuzlu konfransın əsas prioriteti isə iqlim maliyyəsidir. Ona görə də COP29-da iqlim dəyişikliyinə qarşı mübarizənin səmərəliliyini şərtləndirən iqlim maliyyələşdirilməsinin, eləcə də iqlim dəyişmələri üzrə vacib sahələrin –mitiqasiya və adaptasiya istiqamətlərinin diqqətdə saxlanılacağı nəzərdə tutulur. Ümumiyyətlə, bu tədbir çərçivəsində Azərbaycanın COP29 Sədrliyinin irəli sürdüyü 14 əsas təşəbbüsün konfransda müzakirə ediləcəyi gözlənilir: “Bizim məqsədimiz yalnız milli deyil, qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etməkdir. Azərbaycan bu təşəbbüslərlə qlobal səviyyədə “yaşıl” iqtisadiyyata keçidini dəstəkləməklə liderliyini davam etdirməkdə israrlıdır. Bu layihələr ölkəmizin beynəlxalq səviyyədə etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini daha da gücləndirir”.

Göründüyü kimi, Azərbaycanın sosial-iqtisadi islahatlara əsaslanan inkişaf konsepsiyasında dayanıqlı inkişafın bir komponenti olan “yaşıl” iqtisadiyyata keçid mühüm yer tutur. Artıq neçə ildir ki, ölkəmizdə bu istiqamətdə mühüm addımlar atılır. Respublikamız BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, enerji səmərəliliyi və dövri iqtisadiyyatın inkişafı sahələrində ciddi uğurlar əldə edir. 2030-cu ilə qədər bir dövrü əhatə edən Milli Prioritetlər sənədində dayanıqlı inkişaf və ətraf mühitin qorunması əsas hədəflərdən biri kimi diqqətdə saxlanılır.

Xatırladaq ki, bu sənəddə – “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizin “yaşıl” iqtisadiyyata keçidinin sürətləndirilməsi, təbii sərvətlərin səmərəli idarə olunması, karbon emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji səmərəliliyinin artırılması kimi konkret ekoloji məqsədlər yer alıb. BMT-nin statistik məlumatına əsasən, kiçik və orta biznes strukturları hesabına dünya üzrə məşğulluğun payı 70 faizə yüksəlib.

Qadınlar, gənclər və həssas qruplar arasında iş yerlərinin yaradılmasında mühüm rol oynayan KOB-ların fəaliyyəti qlobal karbon emissiyalarının atılmasında da mühüm önəm daşıyır. Bu baxımdan onların ekoloji performansının yaxşılaşdırılması iqlim dəyişikliyi ilə mübarizədə böyük potensiala malikdir. Bununla yanaşı, “Məsuliyyətli istehlak və istehsal” 12-ci Dayanıqlı İnkişaf Məqsədinə uyğun olaraq təmiz və səmərəli istehsal metodlarının tətbiqi resursların daha məsuliyyətli istifadəsinə, eləcə də ekoloji risklərin azaldılmasına töhfə verir.

COP29-un müəyyən edilmiş prezidentinin sözlərinə görə, hazırda iqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçid ən aktual çağırışlardan biridir, eyni zamanda, cəmiyyətin hər bir üzvünün qarşısında duran böyük məsuliyyətdir. Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl” iqtisadiyyata keçid böyük əhəmiyyət kəsb edir.

M.Babayevin sözlərinə görə, Azərbaycanda “yaşıl” iqtisadiyyatın inkişafı ilə bağlı mövcud potensialın reallaşdırılması istiqamətində dövlətin dəstəyi ilə yeni imkanlar açılır. “Yaşıl” enerji sahəsində dövlətin atdığı addımlar da özəl sektor və investorlar üçün uzunmüddətli strategiyanı gerçəkləşdirir və yeni layihələrin inkişafına təkan verir. Bu çərçivədə həm dövlət, həm də özəl sektorda ekoloji layihələrin sayının artırılması zəruridir. Kiçik və orta biznes subyektləri dayanıqlı infrastruktur yaratmağa və “yaşıl” texnologiyalardan istifadə etməyə təşviq olunmalıdır. Yalnız bu yolla iqtisadi artıma və ekoloji səmərəliliyə töhfə vermək mümkündür.

Kiçik və orta biznes subyektlərinin bu keçiddə qarşılaşdığı maliyyə çətinliklərini aradan qaldırmaq üçün onların güzəştli maliyyə resurslarına çıxışını genişləndirmək vacibdir. BMT-nin qiymətləndirməsinə görə, dünya üzrə aşağı karbonlu iqtisadiyyata keçid üçün hər il trilyonlarla ABŞ dolları tələb olunur. “Yaşıl” kreditlər, “yaşıl” istiqrazlar, ekoloji, sosial, korporativ idarəetmə ilə əlaqəli maliyyə alətləri vasitəsilə KOB-ların ekoloji və dayanıqlı layihələrə sərmayə qoymasını asanlaşdırmaq lazımdır. “Yaşıl” və dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik hər bir şirkətdə idarəçiliyinin təməl prinsiplərini təşkil etməlidir. Banklar və digər maliyyə təşkilatları da korporativ sosial məsuliyyət missiyasını yerinə yetirməlidir. Beynəlxalq praktikada olduğu kimi, kommersiya bankları öz fəaliyyətlərində, eləcə də kreditlərin verilməsind iqtisadi amillərlə yanaşı, ekoloji və iqlim məsələlərini nəzərə almalıdır.

# COP29 çərçivəsində liderlər sammiti keçiriləcək




**COP29 çərçivəsində 12–13 noyabrda liderlər sammitinin təşkil olunması nəzərdə tutulub. Bu barədə ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rüstəm Həsənov Bakıda keçirilən beynəlxalq “Hüquq və iqlim” konfransında bildirib. Nazirlik sözçüsünün sözlərinə görə, COP tədbirləri zamanı müzakirələrin daha effektiv təşkil olunması üçün tematik deyilən günlərdən istifadə olunur. Bu il də 7 tematik günün müəyyən olunduğunu diqqətə çatdıran müşavir deyib ki, COP29 zamanı keçiriləcək bütün tədbirlər, məsləhətləşmələr və danışıqlar həmin günlərdə müvafiq qaydada qruplaşdırılacaq.**

R.Həsənov COP-un BMT-nin Baş Assambleyasından sonra ən çox dövlət və hökumət başçısının qatıldığı tədbir olduğunu və mahiyyət etibarilə bütün dünya ictimaiyyətinin diqqətini cəlb etdiyini vurğulayıb. COP29 sədrliyi tərəfindən 14 əsas təşəbbüsün irəli sürüldüyünü diqqətə çatdıran müşavir deyib ki, onların müəyyən olunması zamanı dünya ictimaiyyətinin Azərbaycan gözləntiləri nəzərə alınıb və aktual problemlərə diqqətə yetirilib: “Builki COP-un əsas mövsuzu iqlim maliyyələşməsinin təmin olunmasıdır. Əgər bir mövzuda maliyyə varsa, iki tərəf formalaşır: maliyyəni verən və qəbul edən tərəf. Həmin tərəflər fikir ayrılığında olsalar da onları adətən bir mövzu birləşdirir ki, bu da həmin proseslərin şəffaf olmasıdır. İqlim maliyyəsi deyəndə onun şəffaf mexanizmlər əsasında tərəflər arasında bölünməsi və maliyyə resurslarının cəlb edilməsi nəzərdə tutulur. Bu, bizim COP sədrliyinin öndə gələn vəzifələrindən biridir”.

Şəffaflıq prinsipini artırmaq üçün “Bakı qlobal iqlim şəffaflığı platforması”nın təsis edildiyini bildirən R. Həsənov deyib ki, sənəd çərçivəsində kommersiya tərəfi olan ölkələr təşviq olunur ki, bundan da məqsəd bu il noyabrda keçiriləcək 29-cu sessiyaya kimi şəffaflıq hesabatlarının təqdim edilməsinə nail olmaqdır: “Bununla bağlı bütün tərəflərlə danışıqlar aparılır. Ən əsası BMT Baş Assambleyasının Nyu-Yorkda keçiriləcək 79-cu sessiyasında da tərəfləri bir daha bu məsələyə diqqətlə yanaşmağa səsləyəcəyik”, – deyə o əlavə edib.

**Energetika Nazirliyinin iqtisadiyyat şöbəsinin müdir müavini Eldar Əhmədovun Bakıda keçirilən “Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda konfransda bildirdiyinə görə, dövlət başçısının bu il martın 1-də imzaladığı müvafiq fərmanla yaradılan Enerji Effektivliyi Fondu kiçik, orta və böyük məbləğdə kreditlər verəcək.**

# Enerji Effektivliyi Fondu “yaşıl” keçidi himayə edəcək



Kiçik kreditlər min manatdan 50 min manata qədər olmaqla 5 il, orta kreditlər 50 min manatdan 1 milyon manata qədər olmaqla 10 il, böyük kreditlər isə 1 milyon manatdan 10 milyon manata qədər olmaqla 15 il müddətinə ödəniləcək. Fond enerji resurslarından səmərəli istifadə, enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə yaradılıb. Qurumun bu ilin sonuna, gələn ilin əvvəlinə fəaliyyətə başlaması nəzərdə tutulub.

Yeni fond kreditlər, qrantlar, hüquqi və fiziki şəxslərin könüllü ianələri, beynəlxalq təşkilatların, eləcə də donorların ayırmaları əsasında formalaçacaq. Bu maliyyə qurumu, həmçinin həmin vəsaitlərin idarə edilməsindən gəlir əldə edəcək.

Eldar Əhmədovun bildirdiyinə görə, vəsaitlərin “ağıllı” sayğac və sistemlərin, yüksək, effektiv kogenerasiya qurğularının tətbiqi, bərpaolunan enerji mənbələrindən istifadə, texnika və texnologiyaların yaradılması istiqamətlərində xərclənməsi nəzərdə tutulur.

# Bakı konfransının maliyyə təminatı

**COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətinin məlumatında bildirilir ki, ölkəmizdə iqlim konfransının keçirilməsi üçün dövlət büdcəsində müvafiq ayırmalar təsdiq edilib.**




Həmin vəsaitlər hesabına dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri olan beynəlxalq konfransın – COP29-un yüksək səviyyədə təşkili və zəruri infrastrukturun qurulması üzrə işlərin görülməsi nəzərdə tutulub.

İqlim konfransına ayrılan dövlət vəsaiti üzərində maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə ölkəmizin ali audit orqanı konfransın təşkili üzrə maliyyə idarəetməsini, bağlanılan müvafiq müqavilələrin icrasının nəzərdə tutulan şərtlərə uyğunlaşdırılmasını diqqətdə saxlayır. Məqsəd müəyyən audit prinsiplərində vurğulanan məqamlar nəzərə alınmaqla maliyyə pozuntuları baş verməzdən öncə onların qarşısının alınması, maliyyə nəzarətinin aparılmasında hesabatlılıq və şəffaflıqla yanaşı, tədbirin təşkili üçün ayrılmış vəsaitin səmərəli istifadə edilməsi, eləcə də qənaət olunan məbləğlərin büdcəyə qaytarılmasıdır.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətinin məlumatında bildirilir ki, tədbir başa çatdıqdan sonra icra olunan bütün xərclərin auditi üzrə müvafiq qaydada həm beynəlxalq təşkilat, həm də Hesablama Palatası tərəfindən hesabatın və auditor rəyinin hazırlanması nəzərdə tutulur.

# İqlim təşəbbüslərinin ortaq çağırışları

**Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının noyabrın 8-də CAREC Nazirlər Konfransında müzakirə ediləcək iqlimlə bağlı müştərək həllər noyabrın 11–22-də Bakıda keçiriləcək COP29-da təqdim olunacaq və bununla bağlı ümumi çağırışlar ediləcək.**

Bu barədə CAREC-in İqlim Dəyişmələri üzrə işçi qrupun Bakıda keçirilən 3-cü görüşündə məlumat verilib. Bildirilib ki, işçi qrupun 3-cü görüşünün məqsədi bu il noyabrın 8-də CAREC Nazirlər Konfransında təqdim olunacaq İqlim Dəyişikliyi üzrə Fəaliyyət Planı layihəsinə dair razılığa gəlmək və sənədin qəbuluna nail olmaqdır. Eyni zamanda, konfransda regional iqlim dəyişikliyinə uyğunlaşma və onun təsirlərinin azaldılması layihələrinin konseptuallaşdırılması təşəbbüsü irəli sürüləcək, biliklərin mübadiləsi aparılacaq. Bununla yanaşı, Fəaliyyət Planı CAREC-in təşəbbüslərini şaxələndirəcək, regional iqlimə uyğunlaşma və təsirlərin azaldılması layihələrinin hazırlanmasına, həyata keçirilməsinə dəstək verəcək, tərəfdaşlar arasında koordinasiyanı gücləndirəcək.

CAREC
Central Asia Regional Economic Cooperation Program

Qeyd edək ki, ADB tərəfindən 1997-ci ildə təsis edilmiş CAREC Proqramının əsas məqsədi Mərkəzi Asiya, Cənubi Qafqaz və Cənubi Asiya ölkələri arasında iqtisadi əməkdaşlığın təşviqidir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Toy-büsatlı günlərin mübarək, azad Şuşa!

**Yeni tikilmiş binaların həyətlərindən yüksələn "Vağzalı"nın səsi Şuşanın dörd bir yanını bürüdü. "İsa bulağı"ndan havalanan Qarabağ şikəstəsi, "Xudayar təsnifi" dərin dərələrə doldu, Cıdır düzünün sıldırım qayalarında əks-səda verib uzaqlara, Vətənimizin hər yerinə yayıldı...**

Qarabağın başı buludlardan nəm çəkən dağlarının – Kirsin, Qırxqızın zirvələrində eli şənliyə səsləyən tək tonqallar qalandı. Şuşada 32 il sonra qurulan toy-düyünün sədası dünyanın harasında yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın qəlbini riqqətə gətirdi. Dostlarımız sevindi, düşmənin paxıllıqdan bağrı partladı. Vətən müharibəsi veteranı Elmir Məmmədlinin toy mərasimi həm də azad Şuşanın yeni növrağının başlamasının təntənəli təqdimatına çevrildi. Elmirin, sevib-seçdiyinin ünvanına səslənən gözəl arzulara "Xalq qəzeti"nin kollektivi olaraq biz də qoşuluruq: Uca Tanrı təməli yeni atılan bu ailəni xoşbəxt etsin, onlardan sevgisini, bərəkətini əsirgəməsin!

"İsa bulağı" istirahət kompleksində 32 il sonra ilk toy mərasiminin keçirilməsi Şuşanın sevincinə sevinc qatan hadisədir. Çünki "Qarabağın tacı" bu günlər həm də yeni sakinlərinin gəlişinə sevinir. Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində 2024-cü il sentyabr ayının 5-də respublikanın müxtəlif ərazilərindəki yataqxana, sanatoriya və digər binalarda müvəqqəti məskunlaşmış 102 şuşalıdan ibarət 30 ailə, sentyabrın 7-də isə 91 nəfərdən ibarət daha 27 keçmiş məcburi köçkün ailəsi daimi məskunlaşmaq üçün öz doğma şəhərlərinə qayıdıb.

Bununla da Şuşaya köçürülmüş sakinlərin sayı 763 nəfərə (204 ailə) çatıb. Şuşa həsrəti başa çatanlar arasında şəhid ailələri, qazilər də var. Olardan bir neçəsinin qayıdış təəssüratlarını öyrəndik, həyəcanlarına, sevinclərinə şərik olduq.

**Şəhid anası Həsənova Həqiqət Yelmar qızı bildirdi ki, uzun illər boyu bu günün gələcəyinə olan ümidlərinə sarılıb təsəlli tapıblar, içlərindəki inamı qoruyub-saxlayıblar:**

– Şanlı qələbəmizə qədər olan dövrdə murdar düşmən tapdağı altında olan torpaqlarımıza getmək bizlər üçün əlçatmaz olsa da öz Prezidentimizə, dövlətimizə, xalqımıza və ordumuza olan inamımızı heç zaman itirməmişdik. Əmin idik ki, bir gün Şuşaya, Qarabağın, Şərqi Zəngəzurun bütün şəhərlərinə, kəndlərinə qayıdacağıq. Məhz Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qüdrətli ordumuz hər birimizin bu müqəddəs arsuzunu reallğa çevirdi.

Ölümündən qorxmayan, sinəsini Vətənə sipər edən oğullarımızın canı-qanı hesabına ərazi bütövlüyümüz təmin edilib və bu gün daimi yaşamaq üçün Şuşamıza köçmək səadəti bizə də nəsib olub. Arzu



edirəm ki, bu xoşbəxtliyi bütün həsrətin çəkənlər yaşasın! Allah xalqımıza bundan sonra firavan günlər nəsib etsin! Çox şükür bu günlərə, daha Şuşamızda daha toptüfəng gurultusu deyil, musiqi, çal-çağır səsləri ucalır!

**Həqiqət xanımın oğlu leytenant Nurlan Həsənov 44 günlük müharibə zamanı Füzuli istiqamətində gedən döyüşlərdə müqəddəs şəhidlik zirvəsinə ucalıb. Şəhid anası dedi ki, indi onların bir təsəllisi var:**

– Mən də, atası Nadir də oğlumuzla fəxr edirik. Çünki o, canından çox sevdiyi Vətən yolunda qəhrəmancasına şəhid olub. Özü aramızda olmasa da təsəllimiz odur ki, bütün bu yaşadıqlarımızı, doğma yurdumuza qayıtmağımızı Nurlanın ruhu da görür, duyur. Ona görə də bütün şəhidlərimizin, o cümlədən Nurlanımızın ruhu şaddır!

**Şuşadakı yeni evinə qovuşan Birinci Qarabağ müharibəsinin qazisi Şünasi Babayev üçün qayıdış xəbəri bir az gözlənilməz olub. Bildirdi ki, Şuşada bu qədər qısa vaxta görülən işlərin miqyası insanı heyrətə salır:**



– Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən mənə zəng edib soruşanda ki, Şuşaya qayıtmaq istəyirsənmi, sevincimdən qəhər boğdu məni. Heç bilmədim zəng edənlərə necə təşəkkür etdim. Bu, bizə Allahın ən böyük lütfüdür. Az müddətdə Şuşada belə gözəl binaların tikilməsi, şəhərin yenidən qurulması ilə bağlı xəbərlər, videogörüntülər Qarabağımızın zirvələrinə qoşa sancılmış şanlı Azərbaycan və Türkiyə bayraqları kimi düşmənin gözünə ox kimi sancılır. Şuşa məscidindən yayılan azan səsi onların qulaqlarını batırır!

Mən Birinci Qarabağ müharibəsi zamanı Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərin iştirakçısı olmuşam. 1992-ci il mart ayının 29-da erməni vəhşilərinin şəhəri üç istiqamətdən artilleriya atəşinə tutması nəticəsində ağır yaralanmışam. Həmin vaxtdan indiyə qədər 22 dəfə əməliyyat olunmuşam. Ancaq heç zaman Şuşaya qayıtmaq ümidim azalmayıb, tükənməyib. Çünki işğaldan azad edilmiş bütün torpaqlarımız kimi Şuşa da həyatımızın mənasıdır, arzularımızın, xəyallarımızın gerçəkləşdiyi sehrli məkandır.

**Hər zaman bugünkü gözəl günlərin mütləq baş verəcəyi ümidi ilə yaşayan şəhər sakini bir arzusunu da dilə gətirdi:**

– Bu vaxta qədər həmişə deyirdim ki, Allah bizə gedib doğma Şuşamızı görə biləcəyimiz qədər ömür verəydi. İndi isə uca yaradandan arzulayıram ki, daha çox ömür versin. Versin ki, doyunca Şuşanın havasından udum, suyundan içim, Şuşasız keçirdiyim günlərin acısını çıxarım canımdan. Allah şəhidlərimizə rəhmət eləsin, möhtərəm Prezdentimizi, xalqımızı, ordumuzu, Vətənimizin azadlığı naminə əməyi olan hər bir kəsi qorusun!



Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimési Gülnar Şahverənova da anası Elmira xanımla, mələk kimi qızları Mələk və balaca Elmira ilə öz doğma şəhərinə qayıtmağın xoşbəxtliyini yaşayır. Başları çox qarışıqdır bu günlər. Yeni, illər sonra özlərinə məxsus yarlı-yaraşıqlı evlərinə təzəcə köçüblər axı. Yükləri yerbəyer etmək, evi bəzəmək heç kimə asan gəlməsin.

**Gözaydınlığı verib, Gülnar müəllimədən hansı hisslər keçirdiyini soruşduq. Şuşanın ətrindən danışdı. Dedi, ilin hər fəslində buranın özünəməxsus qoxusu olur:**

– Uzun illər boyu bu qoxuları unutmamışam, onlar üçün darıxmışam. İndi 32 ildən sonra həmişəlik yaşamaq, əvvəllər olduğu kimi, yenə də ətrini ciyərlərimə çəkmək üçün Şuşama qayıtmışam. Bu hissləri sözlə ifadə etmək asan deyil. Mən bütün şuşalılara tezliklə bizim kimi doğma şəhərimizə dönməyi, yaşamağı arzu edirəm. Bu sonsuz sevinci, xoşbəxtlik duyğusunu bizə yaşadan cənab Prezidentimiz İlham Əliyevə minnətdaram. Allah Prezidentimizi qorusun! Allah məkanları uca şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin! Fəxr edirəm ki, belə mərd, qəhrəman oğulları olan bu ölkədə yaşayıram.

Bizi zəfərə aparan, Qarabağa, Şuşaya qovuşduran bu yol ulu öndər Heydər Əliyevin "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" nidasından başlanmışdı. Bu yol "Biz Qarabağımıza qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır", – deyən Müzəffər Ali Baş Komandanımızın Vətən sevgisi, qətiyyəti, polad iradəsi ilə xalqımızı zəfər zirvəsinə çatdırdı. Bu müqəddəs arzu, bu böyük sevgi, sarsılmaz iradə bizi qarabağlı etdi, şuşalı etdi, Qarabağda, Şərqi Zəngəzurda atılan təməllərə, tikilən, qurulan şəhərlərə, kəndlərə çevrildi.

Şərəfli missiyamız isə bitməyib. Biz hələ o qayıdış sevinclərinə çox şərik olacağıq, zəfər yüklü yeni-yeni xəbərlər paylaşacağıq.

***Mahir RƏSULOĞLU,***
***"Xalq qəzeti"nin Qarabağ müxbiri***

**Şuşa**

SAĞLAMLIQ

# Köhnə xəstəliyin yeni təzahürü

## *"Karpal tunel sindiromu"ndan necə qorunmaq olar?*

**Elmə 170 ildən bəri məlum olan bu xəstəlik haqqında çoxlarının məlumatı yoxdur. Karpal tunel sindromu adlanan bu xəstəliyə son vaxtlar ölkəmizdə tez-tez təsadüf edilir. Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun nevroloqu Elşanə Mustafayeva cəmiyyətdə tunel sindiromunun əlamətləri, aradan qaldırılma yolları ilə bağlı açıqlamasında bildirdi:**

– Tunel sindromu sinirin keçdiyi anatomik kanal səviyyəsində lokal zədələnməsidir. Tunel sindromları arasında geniş yayılan və ən çox rast gəlinən Karpal tunel sindromudur. Müxtəlif elmi mənbələrdə yazıldığına görə, Karpal tunel sindromu bütün tunel neyropatiyalarının yarıdan çoxunu təşkil edir. Bu sindrom ilk dəfə 1854-cü ildə ingilis cərrahı Ceyms Pecet tərəfindən aşkar edilib. Karpal kanal bilək nahiyəsində yerləşən, təxminən, 2,5 santimetr uzunluğunda və 2 santimetr enində olan, bilək sümükləri və biləyin köndələn bağı ilə məhdudlaşan bir boşluqdur. Bu kanalda bükücü əzələlərin vətərləri və orta sinir yerləşir. Orta sinirin dar anatomik kanalda sıxılması və ya zədələnməsi nəticəsində yaranan hissiyyat, trofiki simptomlar (əlamətlər) ilə təzahür edən tunel sindromu KTS sindromu adlandırılır.

**– Xəstəliyin yaranma səbəbi nədir?**

– Karpal tunel sindromu zamanı kanalın sümük divarı və bükücü əzələ vətərləri arasında orta sinirin sıxılması baş verir. Davamlı təkrarlanan təsir birləşdirici toxumanın xroniki iltihabına gətirib çıxarır. Nəticədə, o kobudlaşır, qalınlaşır və şişir. Bu da karpal tunel daxilində təzyiqi artırır. Artan təzyiq venoz durğunluğu və ödem yaradır. Bu da sinirin işemiyasına – qan təchizatının pozulmasına səbəb olur. Bir çox hallarda dominant əl zədələnir, lakin sindrom tez-tez hər iki tərəfdə də yaranır.

Sindromun yaranması səbəbinə gəlincə, bir neçə qrup tibbi risk faktorlarından danışmaq lazım gəlir. Karpal tunelin anatomiyasını dəyişdirən amillərə bilək nahiyəsinin birbaşa travması, bilək oynaq sümüklərinin sınığı, posttravmatik artroz, deformasiyaedici artroz aiddir. Həmçinin, bəzi inkişaf anomaliyaları, ekzostozlar, osteofitlər anatomik kanalın həcminin kiçilməsinə səbəb ola bilər.

Tuneldaxili təzyiqi artıran və orqanizmdə su balansının pozulmasına səbəb olan amillərə hamiləlik, klimaks, piylənmə, böyrək çatışmazlığı, hipotiroidizm (qalxanabənzər vəzin hormonunun azalması), ürək çatışmazlığı, revmatoid artrit, oral kontraseptivlərin qəbulu aiddir.

**– Xəstə nə zaman həkimə müraciət etməlidir?**

– Xəstəliyin kliniki mənzərəsi müxtəlifdir və prosesin ağırlığından asılıdır. Lakin buna baxmayaraq, bir sıra tipik simptomlar var ki, KTS-ni başqa xəstəliklərdən fərqləndirir. Bunlara əldə olan hissi və hərəki pozuntular aiddir.

İlkin olaraq pasiyentlər əlin orta sinirin innervasiyası zonasında (1, 2, 3-ü və bəzən 4-cü barmaqlarınn iç səthi boyu) uyuşma, iynəbatma, sancma, qarışqa gəzintisi, gizilti, yanğı kimi hissiyyatın pozulmalarından – parasteziyalardan şikayət edirlər. Bu nahiyədə hissiyyatın azalması – keyləşmə müşahidə oluna bilər. Uyuşma və ya paresteziyalar, ən azı, iki barmaqda və bir ay ərzində əsasən, vaxtaşırı, bəzən isə daimi olur. Bu əlamətlər əlin aktiv bükücü-açıcı hərəkətlərindən sonra, əlləri yuxarı qaldırdıqda (nəqliyyatda, telefonla danışarkən, maşın sürərkən, kitab və ya qəzet oxuyarkən), əl bir vəziyyətdə uzun müddət qaldıqda, dəfələrlə təkrarlanan hərəkətlər zamanı güclənir. Əlin vəziyyətini – yönünü dəyişdirdikdə və ya silkələyəndə, bilək oynağı xüsusi ortezlə (cihaz) fiksasiya olunduğu üçün ağrı azalır. Bununla yanaşı, pasiyentlər sızıldayıcı, bəzən yandırıcı ağrı hiss edə bilərlər. Ağrı, əsasən, biləkdə olur, 1– 4-cü barmaqlara, bir az qola və çiyinlərə yayıla bilər. Uyuşma, paresteziya və ağrı kimi simptomlar gecələr və ya səhərə doğru güclədiyindən xəstələrin yuxusunun pozulmasına səbəb olur. Hissi pozuntular və ağrı səbəbindən hərəkətlərin koordinasiyası və əl gücü pozulur.

Xəstəlik uzun müddət davam etdikdə, hərəkət pozuntuları əmələ gəlir. Bu da özünü orta sinirlə innervasiya edilən əzələlərdə zəiflik və atrofiya ilə göstərir. İlkin olaraq, əllərdə xırda motor bacarıqları pozulur: düymələri bağlamaq, kiçik əşyaları əldə saxlamaq çətinləşir, əlyazma dəyişilir. Zamanla zəiflik o həddə çatır ki, pasiyent bir çox əşyaları əlində tuta bilmir. Vegetativ pozuntular akrosiyanoz, dəridə quruluq, tərləmənin pozulması, əldə soyuqluq hissi şəklində və s. əlamətlərlə özünü göstərir.



**– Xəstəlik hansı yaşlarda daha çox müşahidə olunur və burada genetik faktor varmı?**

– Karpal tunel sindromundan daha çox əmək qabiliyyətli 40–60 yaşlı insanlar əziyyət çəkirlər. Sindroma qadınlarda kişilərə nisbətən 3–10 dəfə daha çox rast gəlinir. Elm adamlarının fikrincə, bu, qadınlarda karpal tunelin daha dar olması ilə də əlaqədardır. Sindroma dünya üzrə, əsasən, Avropa irqinə aid əhali arasında rast gəlinir. Karpal tunel sindromunun ümumi əhali arasında sayı 1,5–3 faizdir. Bəzi risk qrupları arasında isə bu rəqəm 5 faizə çatır.

Bu xəstəlik irsi deyil, yəni valideyndən övlada mütləq şəkildə keçmir. Lakin xəstəliyin əmələ gəlməsində irsiyyətin müəyyən rolu ola bilər. Belə ki, bəzi insanlarda karpal kanalı digərlərinə nisbətən daha dar olur və bunun nəticəsində müvafiq şəraitdə xəstəlik daha tez inkişaf edir.

**– Sindromun diaqnostikası və müalicəsi necə aparılır?**

– KTS-nin diaqnostikası kliniki və instrumental müayinə üsulları əsasında aparılır. Obyektiv müayinə zamanı ələ baxış keçirilir: ödem, trofiki pozuntular, əzələ atrofiyası olub-olmaması müəyyənləşdirilir. Nevroloji müayinə zamanı əlin 1 və 3-cü barmaqlarında hissiyyat, əzələ gücü və tonusu, habelə reflekslər qiymətləndirilir.

Bu patologiyanın iki növ müalicəsi var: konservativ və cərrahi. Sindromun konservativ müalicəsinin əsas prinsipi, xəstəliyi törədən səbəbi müalicə etməkdən ibarətdir. Preparatlarla müalicə zamanı ağrı, iltihab və ödem kimi simptomları aradan qaldıran müxtəlif dərman vasitələrindən istifadə olunur. Bilək nahiyəsində hərəkəti məhdudlaşdırmaq məqsədilə ortopedik ortezlərdən geniş istifadə edilir. Biləyin immobilizasiyası xəstəliyin yüngül və orta dərəcəsində, həmçinin əməliyyatdan sonrakı dövrdə göstərişdir. Ən yaxşı nəticə əldə etmək üçün ortezi uzun müddətə, çıxarmadan taxmaq tövsiyə edilir.

Digər müalicə üsulu kimi fizioterapiyadan istifadə olunur. Fizioterapiya tunel sindromunun dərmansız müalicə üsulu olaraq xəstəliyin etioloji və patogenetik mexanizmlərinə təsir etmək məqsədilə aparılır. Bu səbəbdən geniş spektrli fizioterapevtik üsullardan istifadə olunur: fonoforez, elektroforez (analgetik, damargenişləndirici dərmanlarla), krioterapiya, maqnitoterapiya, yerli darsonvalizasiya, elektrostimulyasiya, lazeroterapiya, palçıq vannaları, naftalan yaxmaları, habelə müalicəvi masaj, akupunktura, manual terapiya və müxtəlif fiziki məşqlər. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda sadaladığım fizioterapevtik üsullarla müalicə metodikaları işlənib hazırlanmışdır. Hazırda bu xəstəlikdə naftalan neftinin təsir gücü öyrənilir.

Əgər terapevtik müalicə altı ay ərzində istənilən nəticəni vermirsə, Karpal tunel sindromunun cərrahi müalicəsi tövsiyə olunur. Cərrahiyyə əməliyyatı yerli anesteziyadan istifadə edərək, açıq və ya endoskopik üsulla icra olunur. Əməliyyat nəticəsində karpal kanalda köndələn bağ kəsilərək sinirin sərbəstləşməsi təmin edilir. Cərrahiyyə əməliyyatı xüsusi ixtisaslı – əl-bilək cərrahları tərəfindən aparılmalıdır. Lakin ölkəmizdə belə əməliyyatlar neyrocərrahlar və ortoped-travmatoloqlar tərəfindən həyata keçirilir.

**– Karpal tunel sindromunun yayılmasının qarşısını necə alacaqlar?**

– Xəstəliyə ürcah olmayaq, eləmi? Karpal tunel sindromunun yaranmasının və ya xəstəliyin kəskinləşməsinin qarşısını almaq üçün soyuq mövsümdə əlləri əlcəklərlə qorumaq, hər hansı fiziki işi yerinə yetirərkən, biləyi həddindən artıq gərginləşdirməmək və ya qəfil hərəkətlər etməmək tövsiyə olunur. Bundan əlavə, iş




zamanı qaməti düzgün saxlamaq, biləkləri ən rahat vəziyyətdə saxlaya biləcək mebel və ofis avadanlıqlarından istifadə etmək lazımdır. Həmçinin, monoton hərəkətlər edərkən, müntəzəm olaraq fasilələr etmək və əllərə istirahət vermək tövsiyə edilir.

Karpal tunel sindromuna səbəb olan xəstəliklərin müalicəsini gecikdirməmək şərti ilə sağlam həyat tərzi sürmək, gündəlik əl hərəkətlərini yerinə yetirmək məqsədəuyğun hesab olunur. Əgər işləyərkən kompüter arxasında çox oturursunuzsa, ofis kreslosu rahat, boyunuza uyğun tənzimlənən, arxa dayaq və qoltuqaltı olmalıdır. Klaviatura və "mışka" erqonomik olmalıdır, işləyərkən xüsusi dayaqlardan istifadə məsləhət görülür. Monitor göz səviyyəsində və ya bir qədər aşağı yerləşməlidir. Boyunu irəli və aşağı əyməkdən çəkinmək lazımdır. Kompüterdə işləyərkən, kürəyi oturacağın arxasına söykəməklə çiyinlər üçün rahatlıq yaradılmalıdır.

Sonda onu deyə bilərik ki, Karpal tunel sindromu həyat üçün təhlükəli deyil, lakin iş qabiliyyətinə ciddi təsir göstərir. Buna görə də ilk əlamətlər əmələ gəldikdə, mümkün qədər mütəxəssisə tez müraciət etmək tövsiyə olunur.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Təhsil işçilərinin sentyabr konfransları





### Bakı

*Sentyabrın 10-da Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfrans iştirakçılarını salamlayan elm və təhsil naziri Emin Əmrullayev yeni dərs ilinin başlanması münasibətilə təhsil işçilərini təbrik edib.

E.Əmrullayev ötən tədris ilində əldə olunan nailiyyətlərdən, aparılan təhsil islahatlarından, mövcud problemlər və onların həlli istiqamətində atılan addımlardan söz açıb, perspektivdə nəzərdə tutulan məsələlərdən, yeni tədris ilinin əsas hədəflərindən bəhs edib.

Nazir çıxışı zamanı ümumi təhsil müəssisələrində 2024–2025-ci tədris ilinin təşkili barədə əmrdə nəzərdə tutulan məsələlərin həllinin zəruriliyini diqqətə çatdırıb.

MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova 2023–2024-cü tədris ilində İdarənin fəaliyyət istiqamətləri üzrə gördüyü işlər haqqında hesabat məruzəsi ilə çıxış edib, paytaxtda məktəbəqədər və ümumi təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və layihələrin





tətbiqi vəziyyətindən danışıb.

N.Hüseynova növbəti tədris ili üçün təhsil işçilərinin qarşısında duran əsas vəzifələr barədə məlumat verib. Bildirib ki, məktəbəqədər təhsildə əhatəliliyin artırılması, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal səriştələrin inkişaf etdirilməsi və digər istiqamətlər əsas hədəflər sırasındadır.

Konfrans panel müzakirələrlə davam edib.

Panel müzakirələrdə elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, MÜTDA-nın direktor müavini, BŞTİ-nin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova iştirak edib.

Müzakirələrdə konfrans iştirakçılarının fikirləri dinlənilib, qonaqların, ekspertlərin təklif və tövsiyələrinə yer verilib, suallar cavablandırılıb.

### Naxçıvan

*Naxçıvan təhsil işçilərinin sentyabr pedaqoji konfransında keçən tədris ilinə yekun vurulub, yeni dərs ilinin hədəfləri geniş müzakirə edilib. "Gənclik" Mərkəzində keçirilən məclisin iştirakçıları əvvəlcə muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrində fəaliyyət göstərən dərnək üzvlərinin hazırladıqları əl işlərindən ibarət sərgiyə baxıblar.*

Konfransda hesabatla çıxış edən muxtar respublikanın təhsil naziri Elxan Nəcəfov bildirib ki, bu gün nazirliyin tabeliyində 269 təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 210-u ümumtəhsil məktəbi, 20-si məktəbəqədər, 35-i məktəbdənkənar, 1-i xüsusi təhsil, 3-ü isə peşə təhsil müəssisəsidir. 2024-cü il şagird nailiyyətləri baxımından Naxçıvan təhsili üçün ən uğurlu illərdən biridir. Buraxılış və qəbul imtahanlarında şagirdlər tərəfindən son 5 ilin ən yüksək nəticələri əldə edilib. Məzunlardan 327-si 500–700 bal toplamaqla tələbə adını qazanıb. Əvvəlki il bu göstərici 196 olub.

Şagirdləri qəbul imtahanlarında yüksək nəticə göstərən Babək rayon Arazkənd ümumi orta məktəbinin müəllimi Dünya Əliyeva və Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Vüsalə Ələkbərova çalışdıqları təhsil ocaqları üzrə qazanılan nailiyyətlərdən danışıblar.

Azərbaycan elm və təhsil nazirinin müavini Firudin Qurbanov təhsil infrastrukturunun təkmilləşməsindən söz açaraq qeyd edib ki, 2017–2022-ci illərdə bir milyondan çox şagirdin tədris şəraitinin yaxşılaşdırılmasına xidmət edən 414 modul tipli məktəb tikilib istifadəyə verilib. 2023-cü ilin sonunadək ölkə ərazisində 1365 məktəb fiber-optik şəbəkəyə qoşulub, 2026-cı ilədək daha 1500 məktəbin fiber-optik şəbəkəyə qoşulması planlaşdırılır. Texnoloji təminatın ilbəil daha da yaxşılaşdırılmasının nəticəsidir ki, 2020-ci ildə 36 şagirdə 1 kompüter düşürdüsə, 2026-cı ildə bu say 6 şagirdə 1 kompüter təşkil edəcək.

Konfrans Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin bədii təqdimatı ilə yekunlaşıb.

**Səbuhi HƏSƏNOV**
**XQ**

# Alimlərmiz İzmir ekoloji konfransında



**Türkiyənin İzmir şəhərində "Avrasiyanın biomüxtəlifliyinin qorunması" mövzusunda II beynəlxalq konfrans keçirilib. Türkiyənin Egey, Özbəkistanın Əndican və Bakı Dövlət universitetlərinin birgə təşkil etdiyi məclis Avrasiya məkanında ətraf mühitə mənfi təsirlər nəticəsində insan həyatı üçün problem yaradan ekoloji məsələlərə və onların həlli ilə bağlı qlobal hədəflərə həsr edilib.**

Müzakirələrdə Türk dövlətləri alimlərinin vahid platformada sağlam gələcək naminə tərəfdaşlıq və birgə faydalı fəaliyyətinin nümunələri diqqət mərkəzində olub. Konfransda ölkəmizin ali təhsil və elmi tədqiqat müəssisələrinin bioloqları əyani və ya onlayn formada məruzələrlə çıxış ediblər.

Elm və Təhsil Nazirliyinin Gəncə Nəbatat Bağının bitki ehtiyatı şöbəsinin müdiri, professor Aynur Bayramova və biomühəndislik, biotexnologiya və geobotanika şöbəsinin müdiri Ramida Quliyevanın "Qarabağın bioloji müxtəlifliyi və müasir perspektivləri" mövzusundakı məruzə beynəlxalq məclisdə böyük maraqla qarşılanıb.

Azərbaycan alimlərinin 70 məruzəsi konfransın materialları toplusuna daxil edilib.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri,**
**Gəncə**

Yeni kitablar

# "Ağ adam"ın işıqlı dünyası

**Rəşad Məcidin 60 illik yubileyinə töhfə kimi hazırlanmış kitab "Ağ adam" adlanır.**




Yeni nəşri müstəqil ədəbi qurum olan "Yazarlar" jurnalının redaksiya heyəti Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri, tanınmış şair, jurnalist, "525-ci qəzet"in baş redaktoru olan Əməkdar mədəniyyət işçisi Rəşad Məcidin haqqında müxtəlif mətbu orqanlarda yayımlanmış seçmə nəsr və nəzm nümunələri əsasında ərsəyə gətirib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Vətəndaşlıq və professionallıq nümunəsi" adlı ön sözündə yubilyarın həyat və yaradıcılıq fəaliyyəti barədə dolğun məlumat verilib. Kitabda Fəxri Uğurlunun, professor Vaqif Yusiflinin, Xalq şairi Nəriman Həsənzadənin və digər qələm sahiblərinin Rəşad Məcidin ömür yoluna işıq tutan yazıları da yer alıb.

"Yazarlar" jurnalının baş redaktoru Zaur Ustacın tərtib etdiyi "Ağ adam" kitabının redaktoru Günnür Ağayeva, naşiri isə Tuncay Şəhrilidir.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# Mingəçevir yeni tələbələrinə xeyir-dua verdi

**Ölkəyə işıq yayan Mingəçevir, eyni zamanda, elm və təhsil ziyasına bələnən şəhərdir. Ali məktəblərə builki qəbulda 600-dən artıq bal toplamış tələbələrlə görüşdə bu barədə ətraflı bəhs edilib.**



Əvvəlcə ötən tədris ilinin yekunları barədə məlumat verilib, əldə olunan uğurlardan danışılıb. Azərbaycanda təhsil islahatlarının müsbət nəticələr verdiyi vurğulanaraq qeyd olunub ki, Mingəçevir də bu sahədə öncül mövqe tutur. Burada bir sıra orta məktəb binaları yenidən tikilib və ya əsaslı təmir edilib, müasir texnoloji avadanlıqlarla təchiz olunub ki, bu da təhsilin keyfiyyətinin yüksəlməsinə təkan verib.



Bu il şəhər ümumtəhsil məktəblərini bitirmiş məzunlardan 5 nəfər qızıl medal, 2 nəfər isə gümüş medala layiq görülüb. Onların 426 nəfəri ali məktəblərə, o cümlədən 41 nəfər yeni yaradılan Qarabağ Universitetinə qəbul olunub. Tələbə adını qazanan mingəçevirli məzunların 150 nəfəri 500-dən yuxarı, o cümlədən 46 nəfəri 600-dən yuxarı bal toplayıb. Təbiət-Riyaziyyat və Humanitar Elmlər təmayüllü liseyin şagirdi Aysel Səlimova şəhər üzrə 684 balla ən yüksək nəticə göstərərib.

Görüşdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov qeyd etdi ki, bütün bu uğurlar Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin və genişmiqyaslı inkişaf proqramlarının nəticəsidir. O, bilik "marafon"unda fərqlənən məzunları təbrik edərək, mingəçevirli gənclərin təhsil sahəsində nailiyyətlərini bundan sonra daha da artıracaqlarına əmin olduğunu bildirib.

Sonda yüksək bal toplayan məzunlara-tələbələrə Mingəçevir Şəhər İcra Hakimiyyətinin hədiyyələri təqdim olundu.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***
**Mingəçevir**

# Kazanda "Altun minbər" film festivalı




**Tatarıstanın paytaxtında XX "Altun minbər" Beynəlxalq Film Festivalı keçirilir. Festivalın müsabiqə proqramına 27 ölkədən 51 film daxil edilib.**

Festival üçün seçilmiş bütün filmlər sülhpərvərlik, dini inanclara hörmət və humanizm ideyaları daşıyan mənəvi-əxlaqi dəyərləri və mədəni ənənələri əks etdirir. Türkiyə kinematoqrafının təmsilçiləri də festivala qatılıblar. Rusiyada da populyar olan "Möhtəşəm yüz il" və "Diriliş Ərtoğrul" seriallarında çəkilmiş aktyorlar da Kazana gəliblər. "Diriliş Ərtoğrul"un quruluşçu rejissoru Mətin Günaydın isə "Altun minbər" festivalında münsiflər heyətinin sədridir. Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü, sənətşünas Nadir Bədəlov isə Festivalda NETPAC Münsiflər heyətinin üzvüdür.

Film bayramında Azərbaycan da iştirak edir. Rejissor Əli-Səttar Quliyevin "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanova həsr etdiyi "Stadionlar səssiz olanda" bədii, rejissor Ərturan Nəcəfi Gölün "Novruz" sənədli filmləri müsabiqədə yer alıb.

Festival çərçivəsində təşkil olunan işgüzar meydanda regional bazar, kino layihələrin pitçinqi, "Kinematoqrafın dünya trendləri" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Müsabiqə və müsabiqədənkənar proqramlara daxil edilmiş filmlər sonradan Tatarıstanın 43 rayonunda göstəriləcək.

Xatırladaq ki, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəklədiyi kino layihələri siyahısına daxil olan "Altun minbər" festivalı "Mədəniyyətlər dialoqundan dialoq mədəniyyətinə" devizi altında 2005-ci ildən keçirilir.

Festival sentyabrın 11-dək davam edəcək.

**XQ**

Xaricdə çalışan alimlər Vətəndə

# Dünya elminin azərbaycanlı fatehləri

**Dünyanın təlatümlü bir vaxtında xarici ölkələrdə yaşayan azərbaycanlı elm, zəka sahiblərinin Bakıda bir araya gəlməsi olduqca böyük əhəmiyyət kəsb edir. Diaspora ilə İş üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Birliyinin təşkilatçılığı ilə keçirilən, sentyabrın 9-dan 12-ə kimi davam edəcək azərbaycanlı alimlərin beynəlxalq forumunun iştirakçılarından bir neçəsi ilə görüşüb, onlardan müsahibə aldıq.**



**Bəxtiyar Siracov, Nobel mükafatçısı:**

– Hər birimizə qürur hissi yaşadan belə bir əzəmətli tədbirdən gözləntilərimiz çoxdur. Məlumdur ki, Azərbaycanın hüdudlarından kənarda yaşayan nəhəng elmi potensialımız var. Hələ ki, bu potensial indiki zamanda istifadə olunmur. Məqsəd belə bir elmi potensialı Azərbaycanın qüdrətlənməsinə cəlb etməkdir.

İnanıram ki, belə bir forum ilk addım kimi Azərbaycana çox böyük uğurlar gətirəcək. Böyük elmi layihələrin arxasında qüdrətli iqtisadiyyatın yaradılması gerçəkdir. Ona görə də düşünən beyinlərin belə bir foruma dəvət olunması çox düzgün olaraq təşkil olunub. Amalımız məmləkətimizə fayda vermək, onun bütün dünyada yüksək nailiyyətlərə sahib olmasına kömək etmək, bir elm adamı kimi biliyimizi Vətənimizə verməkdir.

**Riza Heyət, güneyli alim:**



– Bilirsiniz ki, azərbaycanlı alimlər dünyanın bir çox ölkələrində böyük uğurlara imza atırlar. İnşallah, qismət olarsa, 2-ci, 3-cü forumda daha böyük mütəşəkkil birliyin şahidi olacaqsınız. Mən Güneydən olan azərbaycanlı kimi belə bir möhtəşəm tədbiri təşkil edən Azərbaycan dövlətinə, şəxsən cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Düşünürəm ki, belə bir tədbirin keçirilməsi 50 milyonluq azərbaycanlının birliyinin rəmzidir. Həm də türk dünyasının birliyinin göstəricisidir.

Onu da qeyd edim ki, mən ilk dəfə olaraq Qarabağ zəfərindən sonra Şuşada Dünya Azərbaycanlılarının V qurultayında iştirak edəndə keçirdiyim qürur hissini bu gün də yaşayıram. Əmim doktor Cavad Heyət çox arzu edirdi ki, Şuşanı görsün. Çox təəssüf ki, o, Vətən deyərək, hər zaman ayrılıq nisgilini yaşayırdı. O, son nəfəsində Azərbaycan kəlməsini deyərək, bu müqəddəs torpaqda uyumasını vəsiyyət etmişdi.

Onun ən böyük arzusu Qarabağ torpaqlarının işğaldan azad olunmasını görmək idi. Mən əmimin istəklərini bir övlad kimi həyata keçirməkdən ötrü bütün varlığımla Azərbaycan deyəndə sizinlə bir olmağa hazıram və özümü güneyli azərbaycanlı kimi sizlərdən biri kimi təqdim etməyə nə qədər şərəf duyduğumu bilməyinizi istərdim.

İkinci dəfə Şuşaya gedəndə yolda Qarabağın təkrarsız gözəlliyini gördükcə qəlbimin pıçıltıları ilə Cavad Heyətə ürəyimin ismarıcını göndərdim ki, bax, indi sənin arzunu yerinə yetirdim. Ruhumdan sənin ruhuna bir xəbər göndərərək, müqəddəs Şuşaya ayaq basanda müzəffər Azərbaycan Ordusuna bir övlad olaraq baş əydim, torpaqdan öpdüm. “Biz Azərbaycanlıyıq!” kəlməsindən gözəl nə ola bilər?! İki dəfə Şuşada oldum və ürəyimdə əmimlə danışaraq dedim ki, əmi, sənin əvəzindən də bu müqəddəs yerləri ziyarət etməyə gəlmişəm.

Bəli, biz azərbaycanlıyıq. Kimliyimizdən asılı olmayaraq, qanımız, canımız, ürəyimiz böyük Azərbaycan üçün döyünməlidir. 44 gündə Azərbaycanın varlığının, qüdrətinin əzəmətini bir daha bütün Türk dünyası gördü və döyüş ruhu ilə yaşadı. Cənab İlham Əliyev Türk dünyasının böyük lideridir. Mən Şuşada onun çıxışını dinləyəndə çox kövrəlmişdim. Bilirsiniz niyə? Zəkası, diplomatik manevrləri ilə bizlərə ümid yeri olan dahi İlham Əliyev kimi dövlət rəhbərini dinlədikcə, Azərbaycanın qüdrətlənməsinə bütün varlığımla inandım və bu gün düşünürəm ki, alimlərlə birgə Qarabağ torpaqlarında, xüsusilə Xankəndidə doğma ocaqlarına qayıdan ziyalılarla, yerli camaatla görüşüb, onları mənən, ruhən salamlamağı özümüzə borc bilməliyik və ora getməliyik.

Ürəyimdən gələn bir fikri sizinlə bölüşmək istəyirəm. Azərbaycan tarix boyu alimlər yetişdirən bir ölkə olub. Buna sübut kimi bu gün Amerikada, Avropada, Asiyada fəaliyyət göstərən azərbaycanlı alimlərin haqqında xüsusi olaraq fəxrlə danışmaq istəyirəm. Onlar öz dəst-xətləri, zəkaları ilə hər zaman özəlliklə seçilirlər. Bir alim kimi deyə bilərəm ki, bunun canlı göstəricisi qardaş Türkiyə respublikasında öz təsdiqini tapıb.

Təsəvvür edin ki, Türkiyənin bütün mərkəzi şəhərlərində yerləşən elm, təhsil ocaqlarında azərbaycanlı alimlərin fəaliyyəti fərqli şəkildə nəzərə çarpır. Elə buna görə də Türkiyə Respublikasında yaradılan “Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Birliyi” İctimai Təşkilatı fəaliyyəti ilə bu gün hamının diqqətini cəlb edir. Mən təşkilatın üzvü kimi azərbaycanlı elm adamlarının xidmətlərini yüksək qiymətləndirirəm.

İnanıram ki, türk dövlətləri Azərbaycanın getdiyi bu yolun özəlliyini dərk edib, türk dünyasının qüvvətlənməsi üçün bacardıqlarını edəcəklər. Azərbaycan bir çox mənada türk dünyasına örnək olan mənəvi bağlarımızı daha da gücləndirən elə bir siyasət aparır ki, biz bu görülən böyük işlərin arxasınca gedib, öz işimizi Azərbaycanın adına layiq görməliyik. Bu baxımdan belə bir forumun keçirilməsini alqışlayıram. İnanıram ki, bura toplanan alimlər Azərbaycan elminin bütün dünyada tanıdılması üçün var-qüvvələri ilə çalışacaqlar. Mən Şuşanı görəndə Təbrizi xatırlayıram. Uzun illərdir ki, Təbrizi görə bilmirəm. İndi yolum Xankəndiyədir. İnanıram ki, yenə də düşüncələrim mənə həsrətində olduğum Təbrizi xatırladacaq. Oradan Təbrizə salamlarımı göndərəcəyəm.

**Kamran Rüstəmov, texnika elmləri doktoru, professor:**



– Mən uzun illərdir ki, Rusiyada yaşayıram. Belə bir forumun keçirilməsinin çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan alimlərinin nailiyyətlərini qabarıq olaraq təbliğ etməliyik. Xalqımıza, xüsusilə, elm adamlarına bu barədə müfəssəl məlumat çatdırmaq vacib məsələlərdən biridir.

– Azərbaycan Prezidenti dünyada yaşayan azərbaycanlıların birliyinin göstəricisi kimi belə bir forumun keçirilməsinə hərtərəfli dəstək olmuşdur. Ona görə də mən cənab İlham Əliyevi “Ən Böyük Azərbaycanlı” kimi alqışlayıram. Fəxr etməliyik ki, Türk dünyasında bizim varlığımızı təsdiqləyən və sözünü əməli ilə deyən böyük liderimiz var. Gələcək nailiyyətlərimiz Azərbaycan elminin qüdrəti üzərində qurulacaq.

**Toğrul Talışinski, cərrah:**



– Vətən hamımızındır. Ona görə də bir əsgər kimi hər zaman dövlətimizin çağırışına hazır olmağı düşünürəm və buna özümü borclu bilirəm. Çox gözəl, möhtəşəm bir forumdur. Bunun üçün cənab Prezidentimizə minnətdarıq.

Belə bir forumun keçirilməsi azərbaycanlı alimlərin birliyinin ən yüksək formada təşkil olunmasıdır. Hamımızın burada bir məqsədi var: Vətənimizin bu günü, sabahı, gələcəyi üçün çalışmaq, bir yerdə düşünmək Azərbaycan naminə böyük uğurlara imza atmaq!

ABŞ-da Nyu-Cersi ştatında xəstəxanada cərrah kimi çalışmaqla yanaşı, böyük bir cərrahi bölməyə rəhbərlik edirəm. Neçə illərdir orada həkimlər, tələbələr yetişdirirəm və azərbaycanlı olmağımla fəxr edirəm. Gələcək üçün ən güclü Azərbaycan yetişdirmək bugünkü forumun başlıca məqsədidir. Bu mənada Azərbaycan dövlətinə Amerikada yaşayan bir cərrah alim kimi bacardığımı etməyə hazıram. Talışınskilər nəslinin davamçısı olaraq uzaq bir ölkədə azərbaycanlı olduğumun məsuliyyətini hər zaman dərk etmişəm və bu gün bu məsuliyyəti ikiqat hiss edirəm. Çünki hamımızın bir vətəni var. Güclü Azərbaycan bizim arxamız, varlığımızdır!

*Söhbəti qələmə aldı:*
*Kəmalə ABDİNOVA,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

**Yaxın 10 ildə Ermənistanın əhalisi 800 min nəfər azalaraq 2,2 milyon nəfərə düşə bilər. Bu barədə “Sputnik Ermənistan”a Ermənistan Hesablama Palatasının sədri Nairi Sarkisyan məlumat verib. “Əgər bu temp davam edərsə, yaxın 25 ildə ölkədə erməni qalmayacaq” – deyə Sarkisyan bildirib.**

# Ermənistan niyə ermənisizləşir?

Onun sözlərinə görə, əsas səbəblər arasında doğum səviyyəsinin aşağı olması, miqrasiya, iqtisadiyyat və Qarabağdakı müharibənin nəticələridir. Bunların nəticəsidir ki, ötən il 48 min vətəndaş Ermənistanı tərk edib və geri qayıtmayıb. Ukraynada xüsusi hərbi əməliyyat başladıqdan sonra



Rusiyaya gedən vətəndaşların sayı azalıb, lakin ABŞ-da “Green card” qazanmaq üçün növbələr yaranıb. Hesablama Palatasının rəhbəri ilin sonuna kimi ölkəni tərk edənlərin sayının 2023-cü ilin göstəricisindən çox olacağını istisna etmir.

Torpaq və su ehtiyatlarına gəlincə, Sarkisyan vurğulayıb ki, Ermənistanda kənd təsərrüfatına yararlı torpaqların 60 faizdən çoxu hələ də əkilməmiş və istifadəsiz olaraq qalır. Ekspertlər də Sarksiyanın dediklərini təstiqləyirlər. Bildiriblər ki, ümumilikdə 280 min hektar kənd təsərrüfatı sahəsi becərilir. Bu da o deməkdir ki, əkin üçün yararlı torpaqların təxminən yarısı istifadəsiz qalır.

Erməni fermerlərin kənd təsərrüfatına marağının olmamasının səbəbi isə müxtəlifdir. Birincisi, vahid təsərrüfatlar kiçik təsərrüfat sahələrinə parçalanıb. Hazırda “orta” fermerlərinin əksəriyyətinin ən yaxşı halda 1 hektar torpaq sahələri var. Onlar iqtisadi baxımdan effektli deyil və tam istifadə olunmur. İkincisi, kənd təsərrüfatı texnikasının sayı çox olsa da, böyük əksəriyyətinin istismar müddəti başa çatıb. Bu, daimi nasazlıqlar, yanacaq və sürtkü yağlarının artan istehlakı deməkdir. Yeni kənd təsərrüfatı texnikalarının qiymətləri isə bahadır. Məsələ burasındadır ki, “orta” fermerlər kənd təsərrüfatı texnikasını təkbaşına ala bilmir, çünki imkanları yoxdur.

Üçüncü, kadr çatışmazlığı ilə bağlıdır. Bu sahəni bilən peşəkar kadrlar yoxdur. Erməni fermerlər gəlir götürmək əvəzinə, zərərə düşürlər. Nəticədə, torpaq sahələri istifadəsiz, boş qalır. Fermerlər kəndləri tərk edərək qazanc dalınca şəhərlərə, xarici ölkələrə gedirlər. Bu ilin I yarısında kənd təsərrüfatı məhsullarının ixracının 17 faiz azalmasının səbəblərindən biri də budur.

Əhalinin Ermənistanı tərk etməsi həm də iqtisadiyyatın digər sahələri ilə bağlıdır. Məsələn, Ermənistanın iqtisadiyyatı 2024-cü ilin birinci rübündə 7,7 faiz, ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 90 faiz artıb. Real mənzərə isə tamamilə fərqlidir. Avrasiya Ekspert Klubunun üzvü Ağasi Tavadyan yerli mətbuata açıqlamasında deyib: “Ermənistanın ixracının həcmi 13 milyard ABŞ dolları təşkil edib. Artım tamamilə təkrar ixracın–qızıl və qiymətli metalların (62,4 faiz) hesabına baş verib. Əgər qiymətli metal və daşları nəzərə almasaq, yerli məhsulların ixracı 5,53 milyard dollardan 4,9 milyard dollara düşüb. Deməli, Ermənistanın ixraçında 90 faiz artım deyil, 11 faiz azalma var. Bu da onu göstərir ki, yerli istehsal çox zəifdir, artım qızıl və qiymətli metalların təkrar ixracı ilə bağlıdır. Qiymətli metallar və daşlar isə Rusiya məhsullarıdır və Moskva beynəlxalq sanksiya səbəbindən öz məhsullarını Ermənistan tərəfindən xarici bazara çıxarır”.

A.Tavadyanın sözlərindən aydın olur ki, qızılın təkrar ixracının artması digər malların ixracının azalmasına və iqtisadiyyatın real sektoruna mənfi təsir edir.

Erməni ekspertlərin fikrincə, əhalinin ölkəni tərk etməsinə təkcə iqtisadi amillər səbəb olmur. Sahibkarlar da xaricə qaçırlar. Onlar məşğul olduqları biznes sahəsini genişləndirmək istəyirlər. Bunun üçün ölkədə şərait yoxdur. Ümumiyyətlə, onların əmlakına və biznesinin toxunulmazlığına heç kəs zəmanət vermir. İstər iş adamları, istərsə də qazancı çox olan digər sahələrdə çalışanlar heç bir perspektiv görmədiyi üçün ölkəni tərk etmək qərarına gəlirlər. Bunun qarşısını almaq üçün dövlət heç bir iş görmür. Sahibkarlar rüşvət verməkdən, yaradıcı adamlar isə süründürməçilikdən bezmişlər.

Qarabağ erməniləri də daha sakit, rahat və komfortlu yaşamaq üçün Ermənistanı tərk edirlər. 2023-cü ilin sentyabrından 2024-cü il martın 4-dək Qarabağdan olan 13 min 619 şəxs Ermənistanı tərk edib, onlardan yalnız 5 min 794-ü geri qayıdıb.

İqtisadi vəziyyət həm də doğum səviyyəsinə təsir göstərir. Ölkədə doğum səviyyəsi ilə bağlı vəziyyət mürəkkəbdir: təbii çoxalma həddi dünyada 2,1 olduğu halda, Ermənistanda 1,6–1,7 təşkil edir. Əslində bu göstərici daha aşağı da ola bilər. Bununla bağlı Ermənistan Hesablama Palatasının sədri deyib: “Biz güman edirik ki, göstərici azalıb və 1,4–1,5 arasında dəyişir”. Nəticədə, illik ölüm sayı doğum sayını üstələyir. Bu da əhalinin sayının azalmasında rol oynayır.

Bütün bunlar birlikdə ölkəni fəlakətli vəziyyətə gətirib çıxarır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Rusiya səmasında PUA kabusu...

**Rusiya ilə Ukrayna arasında müharibədə heç bir səngimə müşahidə edilmir. Əksinə, tərəflər bir-birinə daha dağıdıcı və öldürücü zərbələr endirirlər. Ötən gün gecə Rusiyanın bir neçə regionu iri pilotsuz təyyarə hücumuna məruz qalıb. Partlayışlar Belqorod, Kursk, Oryol, Voronej, Tula, Kaluqa, Lipetsk, Moskva vilayətlərində və Krasnodar diyarında qeydə alınıb. Zərbələr nəticəsində həlak olanlar var.**

Rusiya Müdafiə Nazirliyi bildirib ki, hava hücumundan müdafiə sistemləri bir gecədə ölkənin 9 rayonu, o cümlədən Moskva vilayəti üzərində Ukraynaya məxsus 144 pilotsuz uçuş aparatını məhv edib. Rusiya paytaxtının meri Sergey Sobyanin “Telegram”da sentyabrın 10-na keçən gecə Moskvaya doğru uçan 14 pilotsuz təyyarənin vurulduğunu bildirib. Pilotsuz təyyarələr Podolsk, Ramenskoye, Lyubertsı, Domodedovo və Kolomna şəhər rayonlarında vurulub. Onlardan biri Ramenskoyedə çoxmərtəbəli binaya çırpılıb, nəticədə 11–12-ci mərtəbələrdə bir neçə mənzildə yanğın baş verib. Xeyli sayda yaralının olduğu bildirilir. Həlak olanların sayının beş nəfərə çatdığı vurğulanır.

Bryansk vilayətinin qubernatoru Aleksandr Boqomaz “Telegram”da Rusiya hava hücumundan müdafiə qüvvələrinin ona həvalə edilmiş bölgədə 59 “təyyarə tipli pilotsuz uçuş aparatını” vurduğunu bildirib. Pilotsuz təyyarələrin vurulması nəticəsində baş verən partlayışların görüntüləri internetdə yayımlanıb. Xüsusilə, bir PUA-nın “Rosneft” yanacaqdoldurma məntəqəsinin yaxınlığında partladıldığı bildirilir.

TASS xəbər verir ki, Rusiyanın hava hücumundan müdafiəsi tərəfindən Tula vilayəti üzərində vurulan pilotsuz təyyarənin qalıqları yanacaq-energetika obyektinin üzərinə düşüb. Rusiya dövlət agentliyi Tula hakimiyyətinin texnoloji prosesin dayanmadığını və istehlakçılara resurs təchizatının kəsilmədiyini bildirib.

Moskva vilayətinin qubernatoru Andrey Vorobyov isə “Telegram”da bildirib ki, Moskva vilayətinə pilotsuz təyyarənin hücumu nəticəsində bir qadın ölüb, üç nəfər yaralanıb. Yerli sosial şəbəkələrdə Jukovski kəndi ərazisində, Lyubertsı və Ramenskoye ərazilərində eşidildiyi iddia edilən altı partlayışın görüntüləri yayımlanıb.

Bundan başqa, Moskvanın Vnukovo və Domodedovo hava limanları pilotsuz təyyarələrin hücumu fonunda fəaliyyətini müvəqqəti olaraq dayandırıb. RİA Novosti xəbər verir ki, Vnukovoya 30-dan çox beynəlxalq və daxili reys, Domodedovoya isə



13 reys alternativ hava limanlarına yönləndirilib. Əvvəllər iş Jukovski hava limanı tərəfindən də məhdudlaşdırılırdı. Sobyanin daha əvvəl demişdi ki, yaxınlıqda vurulmuş PUA-dan düşən dağıntıların nəticələri “aradan qaldırılır”.

“Mash” “Telegram” kanalının məlumatına görə, hücum zamanı Ukrayna Moskva vilayətinə zərbələr endirmək üçün “Lyutıy” tipli pilotsuz təyyarələrdən istifadə edib. Qeyd olunur ki, “Lyutıy”in uçuş məsafəsi təxminən 1000 kilometr, döyüş yükü 50 kiloqram partlayıcıdır.

Tula vilayətində səlahiyyətlilər iki PUA-nın vurulduğunu, onlardan birinin fraqmentlərinin “yanacaq-energetika kompleksinin obyektlərindən birinə” düşdüyünü bildirib. Lipetsk vilayətində qubernator İqor Artamonov regionun üç rayonunda pilotsuz təyyarələrin zərərsizləşdirilməsi barədə məlumat verib, lakin onların sayını açıqlamayıb.

Cəbhə xəttində də vəziyyət gərgin olaraq qalır. Hər iki tərəfin ciddi itkilərlə üzləşdiyi bildirilir, yaxın perspektivdə vəziyyətin daha da pisləşəcəyi vurğulanır. Artıq Ukraynanın Qərbdəki müttəfiqləri də sülh danışıqları barədə tez-tez danışmağa başlayıblar. Xüsusilə də Almaniya kansleri Olaf Şoltsun sülh planı hazırladığı iddia olunur.

Rusiyada isə belə danışıqlara ehtiyatlı yanaşırlar. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu “Rossiya-24” telekanalına müsahibəsində Ukrayna ilə danışıqların bərpası üçün şərti açıqlayıb. O bildirib ki, Rusiya qoşunları Kursk vilayətinin ərazisində olduğu müddətdə Ukrayna ilə heç bir danışıqlar aparmayacaq.

İki gün əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib ki, Moskva Kiyevlə danışıqlara başlamazdan əvvəl dəqiq nəyin müzakirə olunacağını başa düşməlidir. Onun sözlərinə görə, Ukrayna münaqişəsinin ərazi mübadiləsi çərçivəsində müzakirəsi “ciddi deyil”. O, həmçinin qeyd edib ki, münaqişənin sülh yolu ilə həlli təşəbbüslərinin heç birində rusdilli sakinlərin hüquqlarının təmin edilməsi problemi nəzərə alınmır.

*SE LAY*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 197 (30601) 11 sentyabr 2024-cü il, çərşənbə

# Paris qalibləri Vətəndə

**Fransanın paytaxtı Paris şəhərində keçirilən Yay Paralimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançıları Vətənə dönüblər.**



Mükafatçıları Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Paralimpiya Komitəsinin nümayəndələri, media mənsubları, azarkeşlər və idmançıların yaxınları qarşılayıblar.

Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla, ümumilikdə 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub.

# Dünya şahmatının zirvə yarışı




**Bu gün Macarıstanda 45-ci Ümumdünya Şahmat Olimpiadasında komandamız mübarizəyə başlayır.**

Budapeştdə keçirilən yarışda kişi şahmatçılardan ibarət Azərbaycan milli komandasında Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Nicat Abasov, Aydın Süleymanlı və Məhəmməd Muradlı çıxış edəcək. Kapitan kimi Teymur Rəcəbov komandaya kömək edəcək. Kişi şahmatçılardan ibarət komanda reytinqə əsasən 12-ci yerdədir.

Qadın şahmatçılardan ibarət milli komandada isə Günay Məmmədzadə, Gövhər Beydullayeva, Xanım Balacayeva, Ülviyyə Fətəliyeva və Gülnar Məmmədova medallar uğrunda mübarizə aparacaqlar. Kapitan Mixail Şereşevski olacaq. Komanda reytinqə əsasən 6-cı pillədədir.

Turnirdə kişilərin mübarizəsində 197, qadınların yarışında isə 184 ölkənin komandası güclərini sınayacaq.

Qeyd edək ki, 11 turdan ibarət Şahmat Olimpiadası sentyabrın 23-dək davam edəcək.

*L.QURBANOVA*
*XQ*

# Paralimpiya 2024: 18 idmançımız 11 medal qazandı

**İnsan gücü sərhədsizdir və onun üçün əlçatmaz zirvə yoxdur. Ötən günlər ərzində Paris Yay Paralimpiya Oyunlarında hətta fiziki məhdudiyyətli hesab etdiyimiz şəxslərin əldə etdikləri fantastik nəticələr dünyanın hər yerində insanlar üçün böyük motivasiya oldu. İdmanın insanın mənəvi, fiziki tərbiyəsində oynadığı mühüm rol bir daha alqışlandı.**




Onların arasında Azərbaycandan olan qəhrəmanlar da var. İdmançılarımızın əzmkarlığı qürur mənbəyimizə çevrildi. Parisdə hər dəfə himnimiz səslənəndə, bayrağımız yüksəklərdə dalğalananda fəxarət hissi keçirdik.

## 18 idmançı, 11 medal

Ötən ay başa çatmış Paris Yay Olimpiya Oyunlarında komandamız 7 medal qazanaraq Azərbaycanın tarixində ilk dəfə ümumi hesabda 30-cu yeri tutmuşdusa, paralimpiyaçılarımız 11 medalla 28-ci nəticəni göstərib. Ötən paralimpiadalara nəzər salsaq, budəfəki yarışlarda paralimpiyaçılarımızın xüsusilə fərqləndiyini vurğulaya bilərik.

Paralimpiadalar tarixində Azərbaycan komandası ən çox medalı "Tokio-2020"də qazanıb. Tokioya 36 idmançı ilə yola düşən komandamız oradan 19 medalla (14 qızıl, 1 gümüş, 4 bürünc medal) qayıtmışdı. Parisdə isə 18 idmançı ilə təmsil olunan yığmamız 4-ü qızıl olmaqla 11 medal əldə edib. Onu da qeyd etməliyik ki, millimiz ilk dəfə 7 idman növündə təmsil olundu.

## Paraatletikadan Parisdə ən yaxşı nəticə

5 idmançı ilə çıxış edən paraatletika millimizin heyətində Səid Nəcəfzadə (T12, uzunluğa tullanma), Orxan Aslanov (T13, uzunluğa tullanma) və Lamiyə Vəliyeva (T13, 100 metr qaçış) fəxri kürsünün ən yüksək pilləsində yer aldılar. "Tokio-2020"də 1 qızıl və 1 gümüş medal qazanan Lamiyə Vəliyeva mötəbər yarışın favoritləri arasında idi. 22 yaşlı atlet builki dünya çempionatında iştirak etdiyi 100 və 400 metr məsafələrə qaçışda qızıl medal qazanmışdı. O, Paris Paralimpiadasında qızıl medalla yanaşı, 400 məsafə üzrə qaçışda da uğurla çıxış edərək gümüş medala sahib oldu. 151 ölkə təmsilçilərinin mübarizə apardığı paratletika yarışlarında komandamız yekun sıralamada 19-cu yeri tutdu.

## Paraüzgüçülərimiz bu dəfə də fərqləndilər

Paralimpiadada paraüzgüçülük üzrə komandamız da fərqləndi. Üzgüçü Raman Salei bundan əvvəl sahib olduğu 4 paralimpiya medalına daha 3-nü (1 gümüş və 2 bürünc) əlavə etdi. Tokio Paralimpiadasının qalibi Vəli İsrafilov (100 metr, brass, SB13) isə bu dəfə bürünc medal qazandı. Deməli, paralimpiadada 11 medaldan 8-i bu idman növlərinin payına düşür. Ötən paralimpiadalarda da atletika və üzgüçülük üzrə yaxşı nəticələr qazanılıb.

## İlk parataekvondo medallarımız

Fəxrlə deyə bilərik ki, Paris Paralimpiadasında parataekvondoda Azərbaycan ilk medallarını qazandı.




Bu növdə qızıl medala sahib olan İmaməddin Xəlilov (70 kq, K44) idman tariximizə ilk Paralimpiya çempionu kimi düşdü. Yığmamızın digər üzvü Sabir Zeynalov (58 kq, K44) isə 3-cü yeri tutdu.

Yığmamızın üzvü "Afina-2004"-də ilk medalını qazanan əfsanəvi idmançı İlham Zəkiyevin nailiyyətini yaddan çıxarmamalıyıq. Afina və Pekin paralimpiadalarının qalibi, London, eləcə də Rio oyunlarında 3-cü yeri tutan 44 yaşlı cüdoçu bu dəfə xalqımızı bürünc medalla sevindirdi.

## Vətənimiz Azərbaycana alnıaçıq geri dönürük

İlham Zəkiyev jurnalistlərə açıqlamasında yarışla bağlı təəssüratlarını bölüşərkən istənilən medalın qələbə demək olduğunu bildirib:

– Bu qələbəmi Azərbaycan xalqına həsr edirəm. Nəhayət, biz sərhədləri tam bərpa olunmuş Azərbaycanın adından çıxış edirik. Üçrəngli bayrağımızı çalışacağıq həmişə zirvələrdə saxlayaq.

Bu günə qədər iştirak etdiyim Paralimpiya yarışlarından ən zəifi Parisdə oldu. Biz isə bütün olanlara rəğmən, bayrağımızı Fransada yüksəklərdə dalğalandıra bildik. İdmançı dostlarımız dövlət himnimizi dəfələrlə səsləndirdilər. Bunun üçün çox qürurlu və xoşbəxtik. Vətənimiz Azərbaycana başımız dik, alnımız açıq geri dönürük.

Doğrudan da, paralimpiyaçılarımız Vətənə böyük qələbələrlə dönürlər. İllər ərzində bir-birindən çətin maneələri aşan dəmir iradəli insanlar əzmkarlıqları ilə milyonlar üçün nümunədir. Zirvəyə gedən çətin yoldan usanmayan, yorulmayan, Azərbaycanı layiqincə təmsil edib bayrağını yüksəklərdə dalğalandıran yenilməz paralimpiyaçılarımız ən böyük alqışa layiqdirlər.

*L.QURBANOVA*
*XQ*

# Azərbaycan Qran-prisi üçün yumşaq təkərlər

**"Pirelli" şin istehsalçıları, əvvəlki illərdə olduğu kimi, Azərbaycan Qran-prisi üçün 3 ən yumşaq tərkibli təkərlər hazırlayıb.**

"Bakı Şəhər Halqası" şəhər yollarından ibarət olduğundan və il boyu normal nəqliyyat üçün açıq küçələr boyunca hərəkət etdiyindən, şinlərin mötəbərliliyinin qiymətləndirilməsinə təsir edən mühüm amil asfalt örtüyünün vəziyyətindəki dəyişikliklərin dinamikası olacaq.

Bundan əlavə, hava şəraitinin mümkün təsirini nəzərə almaq lazımdır, çünki sentyabrda Bakıda hava kifayət qədər isti ola bilər: temperaturun keçən il yazda keçirilən Qran-pri ilə müqayisədə mütləq daha yüksək olacağı gözlənilir.

Əsas düz yolda sürətlər çox yüksəkdir – 2016-cı ildə Azərbaycanın paytaxtında keçirilən ilk yarışda Valtteri Bottas "Williams" avtomobili ilə sıralanmada rekord sürətə (378 kilometr/saat) çatmışdı. Bu sürətlərdə rezin sıxıcı qüvvənin təsiri altında maksimum yüklənir.

Adətən, Bakıda yarış bir pit-stopla keçirilir və sürücülər məsafənin əhəmiyyətli hissəsini "Hard" təkərlərlə qət edirlər. Trasın quruluşu, xüsusən start-finiş yolunun sonunda ötmə ehtimalını mümkün etsə də, əslində, belə manevrləri həyata keçirmək o qədər də asan deyil.

**XQ**




# Bu gün 33 dərəcə isti olacaq



**Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən, yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi günün ikinci yarısında şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Qeyd edilib ki, havanın temperaturu gecə 19-22° isti, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 758 civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-90 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 17-22° isti, gündüz 32-37° isti, dağlarda gecə 11-16° isti, gündüz 20-25° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# İçərsən soda – yox olar qada

**Məşhur rusiyalı həkim, sovet dövründə 30 il kosmonavtların sağlamlığına nəzarət edən professor İvan Neumıvakin, həm də qeyri-adi müalicə üsulları ilə tanınır.**

Professorun fikrincə, xəstəliklərin əksəriyyətinin səbəbi orqanizmin Ph balansının pozulmasıdır. Müasir insanların orqanizminin mühiti turş olur və nəticədə, bu, bir çox xəstəliklərin inkişafına, o cümlədən xərçəngə yol açır. O sübut etmişdi ki, orqanizmin daxili mühitinin qələviləşdirilməsi insanı ən ciddi və təhlükəli xəstəliklərin inkişafından qoruya bilər. Bunun üçün ən sadə və ucuz vasitədən – çay sodasından istifadə etməyi tövsiyə edirdi.

Həkimin tövsiyəsinə görə, sodanı qəbul etmək üçün bəzi qaydalara əməl olunmalıdır. Öncə soda isti suda (70–80 dərəcədə) həll edilir. Bir qədər soyudulur (45–50 dərəcəyədək), səhər və axşam yeməkdən əvvəl içilir. Buna 1/4 çay qaşığı sodadan başlamaq, növbəti gün 1/3, 2–3 gündən sonra 1/2 çay qaşığı, yenə 2–3 gün sonra 1 çay qaşığı istifadə edilməlidir. Hər dəfə orqanizmin reaksiyasına baxılır. Hər hansı mənfi simptomlar əmələ gəldikdə, qəbul



dayandırılır və ya doza azaldılır.

Professor soda məhlulunu ömrün sonuna qədər qəbul etməyi tövsiyə edirdi. Alimin sözlərinə görə, bu məhlul orqanizmi bütün ziyanlı maddələrdən, o cümlədən, böyrək, sidik kisəsində olan daşlardan xilas edir, oynaq xəstəliklərini müalicə edir, həzm sisteminin fəaliyyətini normallaşdırır, damarları xolesterindən təmizləyir.

Ənənəvi tibb professor Neumıvakinin tövsiyələrini və müalicə üsullarını qəbul etməsə də, bu prinsiplərin çoxlu tərəfdarları var.

*Z.HÜSEYNLİ*
*XQ*

*✓ 2014-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən müddətdən artıq hərbi qulluqçu Əliyev Qələndər Şaban oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini general-leytenant Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3864
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00